## Zəngilan Hava Limanı beynəlxalq məkan indeksləri kataloquna daxil edildi



**Beynəlxalq Mülki Aviasiya Təşkilatı Zəngilan Hava Limanının beynəlxalq məkan indeksləri kataloquna daxil edib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi Qarabağda tikilməkdə olan Zəngilan Beynəlxalq Hava Limanına kod təyin edilməsi ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatından (ICAO) müsbət rəy alıb. Hava limanına ICAO-nun dördhərfli "UBBZ" kodu təyin olunub. Bu barədə məlumat ICAO-nun "Məkan indeksləri)" (ICAO Doc 7910/182) nəşrinin 2022-ci il mart buraxılışında dərc olunaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq.

(səh.2)




## Parlament Şuşa Bəyannaməsini təsdiq edəcək

**Milli Məclis Şuşa Bəyannaməsini təsdiq edəcək.**

Parlamentin yaz sessiyası çərçivəsində fevralın 1-də keçiriləcək ilk plenar iclasının gündəliyinə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanunun layihəsi daxil edilib.

№ 16 (5538), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 yanvar 2022-ci il (cümə)




# Taksi duracaqlarına daxil olmayın!

### Burada avtomobil saxlayanlar 40 manat cərimələnəcək

**Taksi duracaqlarında başqa avtomobil saxlayan sürücülər cərimələnəcək. İnzibati xətalar məcəlləsinə ediləcək dəyişikliyə əsasən artıq bu duracaqlarda yalnız taksi tanınma nişanı olan avtomobillər park ediləcək.**

Artıq taksi duracaqlarında başqa avtomobil saxlayanlar 40 manat cərimələnəcək. Taksi duracaqlarında başqa nəqliyyat vasitələrinin dayanmasına və durmasına görə cərimə müəyyənləşir. Bu, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsində öz əksini tapıb.

(səh.3)



## Rusiya XİN: İkitərəfli komissiya Ermənistan-Azərbaycan sərhədində insidentlərin qarşısını alacaq

**Soçidə 26 noyabr 2021-ci il tarixində qəbul olunmuş üçtərəfli bəyanatın həyata keçirilməsi ilə bağlı tərəfdaşlarla sıx işləməyə davam edirik.**

Bu barədə bu gün Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və Mətbuat Departamentinin rəhbərinin müavini Aleksey Zaytsev keçirdiyi brifinqdə bildirib.

"Bu bəyanatda Rusiyanın məşvərətçi yardımı ilə Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli komissiyanın yaradılması nəzərdə tutulub. Əminik ki, komissiyanın formalaşdırılması və delimitasiya prosesinə başlanılması sərhədyanı insidentlərin baş verməsinin qarşısını almağa imkan verəcək və ümumilikdə, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına vacib töhfə verəcək", - Rusiya XİN nümayəndəsi vurğulayıb. (apa) O diqqətə çatdırıb ki, profil təmaslarının keçirilməsi planlaşdırılır və bu barədə mətbuata məlumat veriləcək.

## Gövhər Baxşəliyeva AMEA-nın vitse-prezidenti təyin olunub



**AMEA-ya yeni vitse-prezident təyin olunub.**

"Şərq" xəbər verir ki, bu barədə AMEA Rəyasət Heyətinin iclasında qərar qəbul olunub.

Qərara əsasən, akademik Gövhər Baxşəliyeva AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən təyin edilib.

Humanitar Elmlər Bölməsinə rəhbərlik akademik İsa Həbibbəyliyə, İctimai Elmlər Bölməsinə rəhbərlik isə akademik Gövhər Baxşəliyevaya həvalə olunub.

# Qırğızıstan - Tacikistan sərhədində atışma...

### Yaralıların sayı 17-yə çatıb, 1 nəfər ölüb



**Dünən axşam saatlarında Tacikistan və Qırğızıstan sərhədində iki ölkənin sərhədçiləri arasında atışma olub.**

Sərhəddə silahlı qarşıdurma Qırğızıstanın Batken və İsfan şəhərlərini birləşdirən yolun Düşənbə tərəfindən birtərəfli qaydada bağlanması fonunda yaranıb. Tacikistan tərəfinin məlumatına görə, insident nəticəsində 6 nəfər yaralanıb, onların hamısı taciklərdir. Hazırda sərhəd münaqişəsi rayonunda intensiv atışma getdiyi bildirilir.

Qırğızıstanın hakimiyyət orqanları Tacikistanla sərhəd münaqişəsi rayonunda yerləşən kəndlərdən əhalini təxliyə etməyə başlayıb. Bu barədə Qırğızıstan Fövqəladə Hallar Nazirliyi məlumat yayıb. "FHN əhalinin təhlükəsiz yerlərə təxliyəsini yerli sakinlərlə birlikdə həyata keçirir", - məlumatda belə deyilir. Qeyd olunur ki, təxliyə prosesinə mikroavtobuslar, yük maşınları və yolsuzluq avtomobilləri cəlb edilib.

(səh.2)



## 5 silahdaşını güllələdi

### Ukraynada qatil hərbçi saxlanılıb

**Ukraynanın Dnepr şəhərində 5 silahdaşını güllələyən qvardiyaçı saxlanılıb.**

"Report" xəbər verir ki, bu barədə Ukrayna Dövlət İstintaq Bürosunun sözçüsü Olqa Çikanova məlumat verib.

*Xatırladaq ki, Ukraynanın Dnepr şəhərində Milli Qvardiyanın 20 yaşlı hərbçisi Artemiy Ryabçuk "AK-47" avtomat silahından xidmət yoldaşlarına atəş açıb.*

# Paşinyan haqqa gəlir

### Baş nazir Türkiyəyə nəfəs qapısı kimi baxır

**Ermənistanın Baş naziri Nikol Paşinyanın Türkiyəyə səfəri gözlənilir.**

Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Mərkəzi Afrika Cümhuriyyətindən olan həmkarı Sylvie Baipo-Temonla birlikdə keçirdiyi mətbuat konfransında bu məsələ ilə bağlı danışıb.

Nazir Türkiyə-Ermənistan əlaqələrinin normallaşması üçün bu kimi addımların vacib olduğunu vurğulayıb: "Paşinyan Türkiyə səfəri ilə bağlı söz verib. Xüsusi nümayəndələrin Moskvada ilk görüşü olub. Biz mütəmadi olaraq telefonla əlaqə saxlayırıq. Fevral ayından etibarən qarşılıqlı uçuşlar başlayacaq.

(səh.4)



## Daha 3 361 nəfər koronavirusa yoluxub

### 14 nəfər ölüb, 132 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3 361 yeni yoluxma faktı qeydə alınıb, 1 132 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 14 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 643 509 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 620 182 nəfər müalicə olunaraq sağalıb, 8 664 nəfər vəfat edib, aktiv xəstə sayı 14 663 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 923, ötən müddət ərzində isə ümumilikdə 6 107 416 test aparılıb.*

## Azərbaycanda 101 yaşlı qadın vəfat etdi

### Rəhbanu Sadıqovanın beyinə qan sızıb




**Masallının Ərkivan qəsəbəsinin 101 yaşlı sakini vəfat edib.**

Bu barədə Cenub.az məlumat yayıb.

Bildirilib ki, bu gün Masallı rayonu Ərkivan qəsəbəsi, İsoba məhəlləsi sakini, 1921-ci il təvəllüdlü Sadıqova Rəhbanu Mehrəli qızı beyinə qansızma nəticəsində dünyasını dəyişib.



## Ermənistan mediası Azərbaycanın siyasi ekspertlərini izləyir

Qonşu ölkənin mətbuatı Asif Nərimanlının fikirlərindən Paşinyana qarşı istifadə edir

(səh.4)

## Yeni təklif səsləndi

"Kişi qoca yaşında boşanırsa, pensiyasının yarısını qadına verməlidir"



(səh.2)

# Qırğızıstan - Tacikistan sərhədində atışma...

## Yaralıların sayı 17-yə çatıb, 1 nəfər ölüb

**Dünən axşam saatlarında Tacikistan və Qırğızıstan sərhədində iki ölkənin sərhədçiləri arasında atışma olub.**

Sərhəddə silahlı qarşıdurma Qırğızıstanın Batken və İsfan şəhərlərini birləşdirən yolun Düşənbə tərəfindən birtərəfli qaydada bağlanması fonunda yaranıb. Tacikistan tərəfinin məlumatına görə, insident nəticəsində 6 nəfər yaralanıb, onların hamısı taciklərdir.

Hazırda sərhəd münaqişəsi rayonunda intensiv atışma getdiyi bildirilir.

Qırğızıstanın hakimiyyət orqanları Tacikistanla sərhəd münaqişəsi rayonunda yerləşən kəndlərdən əhalini təxliyə etməyə başlayıb. Bu barədə Qırğızıstan Fövqəladə Hallar Nazirliyi məlumat yayıb. "FHN əhalinin təhlükəsiz yerlərə təxliyəsini yerli sakinlərlə birlikdə həyata keçirir", - məlumatda belə deyilir. Qeyd olunur ki, təxliyə prosesinə mikroavtobuslar, yük maşınları və yolsuzluq avtomobilləri cəlb edilib. Təxliyəsi nəzərdə tutulan insanların sayı açıqlanmır.

KTMT-nin baş katibi Stanislav Zas Qırğızıstan və Tacikistan sərhədində baş verənlərlə bağlı tərəfləri dərhal atəşkəsə əməl etməyə çağırıb.



Bunu KTMT-nin sözçüsü Vladimir Zaynetdinov jurnalistlərə açıqlamasında bildirib.

Zaynetdinovun sözlərinə görə, S.Zas Tacikistan Təhlükəsizlik Şurasının katibi Nasrullo Mahmudzoda və Qırğızıstan Təhlükəsizlik Şurasının katibi Marat İmankulov ilə telefon danışığı aparıb: "KTMT-nin baş katibi Qırğızıstan və Tacikistan sərhədində tərəfləri dərhal atəşkəsə əməl etməyə çağırıb".

Zas bildirib ki, sərhəddə yenidən toqquşmaların baş verməsi, nəticədə yaralıların olması ciddi narahatlıq doğurur: "Tacikistan-Qırğızıstan sərhədində silahlı qarşıdurma dərhal dayandırılmalıdır. Münaqişə müstəsna olaraq danışıqlar masası arxasında sülh yolu ilə həll edilməlidir. Bununla belə, KTMT Qırğızıstan və Tacikistana münaqişənin həllində lazımi yardım göstərməyə hazırdır. Əminəm ki, hər iki KTMT üzvü olan dövlətin rəhbərliyi bu mürəkkəb sərhəd probleminin həlli üçün qarşılıqlı məqbul yollar tapacaq.

Dünən gecə saatlarında yayılan məlumata görə, Tacikistan-Qırğızıstan sərhədində baş verən atışma nəticəsində hər iki tərəfdən yaralananların sayı 17 nəfərə çatıb.

İsfara xəstəxanasına 13 yaralı gətirilib, onlardan 11-i hərbçidir.

*Qeyd edilib ki, Tacikistan-Qırğızıstan sərhədinə yaxın İsfara-Batken yolunda silahlı insident zamanı Tacikistanın Xoci Alo kənd sakini Obidjon Tuyçiyev aldığı güllə yarasından ölüb.*

**"Ermənistan revanşizm və yeni müharibə xəyallarından əl çəkmir".**

APA-nın Avropa bürosunun verdiyi xəbərə görə, bu sözləri Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun qış sessiyasında "Ermənistanda demokratik təsisatların



# "Ermənistan revanşizm və yeni müharibə xəyallarından əl çəkmir"

## Səməd Seyidov: "Belə getsə, Sarkisyanın başına gələn Paşinyan hökumətinin də başına gələcək"

fəaliyyəti" barəsində aparılan debat zamanı deyib.

"Ermənistandakı hadisələrə real qiymət vermək Ermənistanın sabit inkişafının əsas şərtidir. Ermənistandakı cəmiyyətdə xaos, müharibədə məğlub olan siyasətçilərdə mövcud olan revanşizm hissi yox olmadıqca Ermənistana kömək edə bilməyəcəyik",- deyə o, qeyd edib.

Səməd Seyidov bildirib ki, Ermənistanda hazırda iqtisadi, siyasi krizis özünü göstərməkdədir: "Bu xaosa görə prezident də istefa verməli oldu. Bu cür getsə, Sarkisyanın başına gələn Paşinyan hökumətinin də başına gələcək".

Səməd Seyidov deyib ki, konflikt bitib və Azərbaycan yalnız sülh axtarır.

# Ukraynada oyun dəyişir

## Putin Türkiyənin dəvətini qəbul etdi

Sənan İsmayıl

**"Putin Ərdoğanın Ukrayna məsələsini müzakirə etmək üçün Türkiyəyə dəvətini qəbul etdi. Səfərin vaxtı bəlli deyil, qarşıdurmanın kəskinləşməsi fonunda bunun qısa zamanda baş tutması gözləniləndir. Hərçənd, Kremlin açıqlaması diqqəti fərqli məqama da çəkir. Peskov bildirir ki, epidemioloji vəziyyət və qrafiklər imkan verən kimi Putin Türkiyəyə gedəcək".**




Yeni masanın qurulması Ankara və Bakının regional oyunçu olmaq gücünü artıracaq

Bu açıqlamanı siyasi şərhçi Asif Nərimanlı verib. Politoloq bildirib ki, Moskva Ukrayna məsələsində Türkiyənin təklif etdiyi masa ilə bağlı yekun qərarı verməyib və səfərin vaxtı proseslərin inkişafına uyğun müəyyən ediləcək: "Qərblə qarşıdurma daha da kəskinləşəcəksə, Putinin Türkiyəyə səfəri tezləşə bilər və Moskva bununla Ankaranın ona qarşı cəbhədə yer almamasına çalışacaq;

Ərdoğan Zelenskini də dəvət etmişdi. Rəsmi Kiyevdən hələki heç bir reaksiya yoxdur. Zelenski toqquşmanın tərəfdarı olmadığını, Putinlə təmas qurmaq istədiyini açıqlayıb. Ankara masası Kiyev üçün yeni fürsətdir, lakin burada ABŞ və Avropanın yanaşması da həlledici rol oynaya bilər.

ABŞ Avropanın Rusiyaya qarşı cəbhədə birləşməsini, Avropa, Fransa və Almaniya Vaşinqtonun marağında olmayan "Normand formatı"nın bərpasını istəyir. Qərb yarımkürəsi Rusiyaya qarşı məsələdə fikir ayrılığı yaşasa da, Türkiyənin qurmaq istədiyi masa məsələsində birləşə bilər: Avropa "Normad formatı"na alternativə, ABŞ Rusiya və Ukraynanın anlaşmasına qarşıdır; bu baxımdan, Ankaraya gəlməməsi üçün Zelenskiyə təzyiqlərin edilməsi mümkündür;

Putin Ankaraya bütün hallarda səfər edəcək, hərçənd, Moskvanın hazırda əsas prioriteti "Normad formatı"nın aktivləşməsi, bununla NATO-da Avropa-ABŞ çatının dərinləşməsidir və bu istiqamətdə işləyəcək".

**A.Nərimanlı vurğulayır ki, proseslərin inkişafından asılı olmayaraq, Kremlin dəvəti qəbul etməsi Ankaranın alternativ masa təklifində müəyyən irəliləyiş hesab oluna bilər. Və Bakı ilə Ankara Zelenskinin gəlişinə də çalışacaq:**

"Mümkün görüşün təşkili ilə münaqişənin həllində irəliləyişə nail olmaq çətin olsa da, yeni eskalasiyanın qarşısını almaq mümkündür. Və bununla:

- Türkiyənin anti-Rusiya cəbhəsində yer almaq riski azalacaq: prosesdə iştirak edən Bakı da iki cəbhə arasında qalmaq təhlükəsini azalda bilər;

- Qara dəniz bölgəsində geniş toqquşmaya imkan verməməklə Şərqi Aralıq dənizindəki senarinin təkrarlanmasının qarşısını ala bilər;

- Alternativ masada istənilən irəliləyiş masanın qurulmasını həyata keçirən Ankara və Bakının regional oyunçu olmaq gücünü artıracaq;

Türkiyə masası Ukrayna üçün ən azı toqquşmanın qarşısını almaq baxımından ən unikal variant hesab edilə bilər, xüsusilə ABŞ-Rusiya toqquşmasında hər iki tərəfin Kiyevi "bufer zona" kimi qəbul etməsi reallığı bunu deməyə əsas verir".

**Beynəlxalq Mülki Aviasiya Təşkilatı Zəngilan Hava Limanını beynəlxalq məkan indeksləri kataloquna daxil edib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi Qarabağda tikilməkdə olan Zəngilan Beynəl-



# Zəngilan Hava Limanı beynəlxalq məkan indeksləri kataloquna daxil edildi

xalq Hava Limanına kod təyin edilməsi ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatından (ICAO) müsbət rəy alıb. Hava limanına ICAO-nun dördhərfli "UBBZ" kodu təyin olunub. Bu barədə məlumat ICAO-nun "Məkan indeksləri)" (ICAO Doc 7910/182) nəşrinin 2022-ci il mart buraxılışında dərc olunaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq.

**Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov İCAO-nun Qarabağın işğaldan azad olmuş daha bir şəhərinin etibarlı tərəfdaş olaraq tanımasını əhəmiyyətli hadisə kimi dəyərləndirib:**

"Zəngilan Beynəlxalq Hava Limanının beynəlxalq yer indeksləri kataloquna daxil etməsi hər birimizdə iftixar hissi yaradır. Qarabağ və Şərqi Zəngəzurda inşa edilən hava limanlarının bazasında yeni aviasiya qovşağı yaradılır. Qısa bir müddət ərzində Zəngilan Hava Limanı bölgənin nəqliyyat-tranzit kommunikasiya mərkəzlərindən birinə çevriləcək".

*Qeyd edək ki, 2021-ci ilin aprel ayında inşasına başlanmış Zəngilan Hava Limanının tikilib istifadəyə verilməsi növbəti tarixi nailiyyət olaraq Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas ərazisi ilə birləşdirəcək. Eyni zamanda regionda böyük, müasir standartlara cavab verən logistik habın yaradılmasına töhfə vermiş olacaq.*

# Regionda daha etibarlı sülhün işartıları görünür

## Zəngəzur dəhlizinin açılması ilə "3+3" formatı tam potensialı ilə işə düşəcək




**Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bildirib ki, "3+3" formatı regionda iqtisadi əlaqələrin və etimadın inkişaf etdirilməsinə mühüm töhfə verəcək.**

Səfir çoxlu üstünlük vəd edən "3+3" formatının işə salındığını deyib. Onun sözlərinə görə, burada əsas maraq regionda vəziyyəti sabitləşdirmək və kommunikasiya əlaqələrini bərpa etməkdir. Boçarnikov əlavə edib ki, "altılıq" formatında iştirak üçün qapı daim Gürcüstanın üzünə açıqdır. Səfir format çərçivəsində növbəti görüşün harada keçiriləcəyi ilə bağlı məlumata malik olmadığını söyləyib. Xatırladaq ki, "3+3" formatında regional əməkdaşlıq platformasının yaradılması təşəbbüsü ilə Prezident İlham Əliyev və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan çıxış edib. Ötən il dekabrın 10-da Moskvada "3+3" formatı çərçivəsində ilk iclas keçirilib. Gürcüstan isə görüşdə iştirakdan imtina edib.

**"3+3" formatının əhəmiyyəti ilə bağlı "Şərq"ə danışan millət vəkili Hikmət Babaoğlu deyib ki, hazırda regionumuz postmüharibə mərhələsinin yeni reallıqlarına uyğunlaşmaqdadır. Deputatın sözlərinə görə, bu mərhələ digər çoxsaylı strateji məsələlərlə yanaşı regionumuzda iqtisadi inteqrasiyanı da aktual edir:** "30 ildən çoxdur istər Cənubi Qafqaz, istərsə də daha böyük coğrafiyada region ölkələrinin iqtisadi əməkdaşlığı Ermənistanın işğalçılıq siyasəti üzündən baş turmurdu. İşğal faktı Rusiya, Türkiyə və İran kimi regionumuzun iqtisadi nəhənglərinin də əlaqələrinə kommunikativ baxımından ciddi əngəllər yaradırdı. Azərbaycan tarixi zəfəri ilə işğal faktını aradan qaldırdı. Əməkdaşlıq və uzunmüddətli sülh üçün yaxşı perspektivlər yaratdı. Belə mühüm platformalardan biri də "3+3" formatıdır. Bu format artıq işlək və real əməkdaşlıq platformasına çevrilməkdədir. Birinci iclas baş tutub və əməkdaşlığın geniş spektri üzrə çoxsaylı məsələlər müzakirə edilib. Önümüzdəki mərhələdə geniş imkanlar üzrə real işlərin görülməsinin şahidi olacağıq".

*H.Babaoğlu qeyd edib ki, prosesə təkan verən güc mərkəzi Azərbaycan-Türkiyə ittifaqıdır:* "Rusiya və İran da prosesdə həvəslə iştirak edirlər. Bu da nəticə etibarilə "3+3" formatını daha cəlbedici və perspektivli edir. Zəngəzur dəhlizinin açılması ilə bu format tam potensialı ilə işə düşəcək və regionumuzda ən böyük iqtisadi əməkdaşlıq platformasına çevriləcək. "3+3" çoxtərəfli əməkdaşlıq platforması üçün real imkanlar yaranır".

**İsmayıl Qocayev**



# Azərbaycanda 3 helikopter satışa çıxarılır

## Helikopter sahibi olmaq istəyənlər üçün yeni fürsət yaranıb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən hərraca çıxarılan dövlət əmlakının, nəqliyyat vasitələrinin müxtəlif olması alıcıların marağına səbəb olur.**

İqtisadiyyat Nazirliyindən "Şərq"ə verilən məlumata görə, martın 1-də keçiriləcək hərraca alıcıların diqqətini cəlb edə biləcək hava nəqliyyat vasitələri çıxarılacaq. Belə ki, helikopter sahibi olmaq istəyənlər üçün yeni fürsət yaranıb. Dövlət Xidməti tərəfindən martın 1-də keçiriləcək hərraca dövlətə məxsus 3 helikopter çıxarılacaq. Hər 3 helikopterin ilkin start qiyməti 2 milyon manatdır. Bunlardan 1-i buraxılış ili 2009-cu il olan "Airbus EC-135P2", digərləri isə istehsal tarixi 2005-ci il olan "Airbus EC-155B1" markalı helikopterlərdir.

*Özəlləşdirilməyə çıxarılan helikopterləri almaq istəyən şəxslər ilkin satış qiymətinin 10 faizi məbləğində (200 000 manat) behi ödəməklə hərracda iştirak edə bilərlər.*

**"Məişət zorakılığı haqqında qanuna görə iqtisadi zorakılıq odur ki, məsələn, bir ailədə qadının ali təhsili var, peşəsi var və amma həyat yoldaşı onu işləməyə qoymur. Qadın üzərində daim aqressiv zorakılığı həyata keçirir.**

Yaxud, qadın işləyir və maaşı alan kimi əri əlindən alır və onun heç bir sərbəstliyə əl-



# Yeni təklif səsləndi

## "Kişi qoca yaşında boşanırsa, pensiyasının yarısını qadına verməlidir"

çatımlılığı olmur. İqtisadi zorakılıq odur ki, bu zorakılığa məruz qalan şəxsi digər tərəf bütün iqtisadi çatımlılıqdan məhrum edir".

**Bu sözləri "Yeni Sabah"a açıqlamasında Mediasiya Şurasının İdarə Heyətinin üzvü Sima Yaqubova deyib. S.Yaqubova bildirib ki, ölkədə işləməyən qadın yoxdur. Onun sözlərinə görə, təsərrüfatı idarə etmək qadının hər hansı bir vəzifədə işləməsindən daha çətin bir işdir:**

"Bu işin istirahət günü, saatı yoxdur. Müqabilində hər hansı ödəniş olmur. Əgər bizim millət vəkilimiz belə bir təklif irəli sürübsə, bunu qanunvericilik baxımından haqlı bir misalla bildirə bilərəm. Məncə ev təsərrüfatını həyata keçirən xanımlara psixoloji dəstək üçün bu fikirlər səsləndirilib. Təəssüf ki, məhkəmə təcrübəsində belə məqamlara rast gəlirəm. Ömürboyu kişi hansısa bir vəzifədə işləyir, müəyyən bazanı yığır, pensiyaya çıxır. Qadın isə evdə oturub, işləmir. Əvəzində uşaqları böyüdür. Həmin kişinin evini, təsərrüfatını idarə edir. Nəticədə həmin xanım pensiyaya çıxa bilmir. Pensiya hüququndan belə məhrum olur".

**S.Yaqubova ailə qanunvericiliyini təkmilləşdirməyin vacib olduğunu bildirib:**

"Məhkəmə praktikasını da bir qədər müsbət etmək lazımdır. Son illər hətta uzun ilin ailələri də dağılır. O cür hallarda kişi qazandığı pensiya hüququnun ən azı ikidə birini qadına verməlidir. Qanunvericilikdə Ailə Məcəlləsində bu ümumi bir şəkildə göstərilib. Lakin nə qanunvericilik, nə də məhkəmə praktikası baxımından tam təkminləşməyib".



# Zaman yetişib

## Ərdoğan tərəfləri barışdırmaq üçün ən optimal yolu seçib

İsmayıl Qocayev

**Rusiya Prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın Türkiyəyə səfərlə bağlı dəvətini qəbul edib. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, epidemioloji vəziyyət və prezidentlərin iş qrafiki imkan verən kimi səfər baş tutacaq.**

Xatırladaq ki, Türkiyə prezidenti rusiyalı həmkarını ölkəsinə səfərə dəvət edib. Ərdoğan vurğulayıb ki, Rusiya-Ukrayna böhranının həlli üçün lazımi addımlar atılır. Türkiyə lideri bəyan edib ki, böhran dialoq yolu ilə, zorakılıq olmadan həll edilməlidir: "Rusiyanın Ukraynaya hücum etməyəcəyinə ümid edirəm. Hər iki ölkə liderini Türkiyəyə dəvət edib sülhə yol açа bilərik. Türkiyə Ukraynanın ərazi bütövlüyü və suverenliyinə lap əvvəldən dəstək verib. Rusiyanın Krım başda olmaqla Ukraynanın ərazi bütövlüyünə zərər yetirən addımlarına qarşı bəlli bir mövqe nümayiş etdirdik. Bu mövqeyimizin dəyişməsi mümkün deyil". Ərdoğan Rusiyanın Ukraynaya silahlı hücum etməyəcəyinə, işğala əl atmayacağına ümid etdiyini söyləyib: "Belə bir addım nə Rusiya, nə də bölgəmiz üçün ağıllı iş olar. Rusiyaya onun bəzi tələblərinin niyə qəbuledilməz olduğunu izah etməliyik. Cənab Putini ölkəmizə dəvət etmişik. Onunla ikitərəfli danışıqlar apararaq müəyyən addımlar atmaq istəyirik".

**Ankaranın vasitəçilik təklifini və Putinin müsbət cavabını "Şərq"ə dəyərləndirən politoloq Elçin Xalidbəyli deyib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyanın Ukrayna siyasətinin yanlış olduğunu dəfələrlə vurğulayıb.** Analitik xatırladıb ki, Türkiyə lideri "hər hansı yerdə torpaq işğal edib, ələ keçirəcəm" məntiqi ilə davranmağın müasir dünya şərtlərində qəbuledilməz olduğunu bəyan edib: "Hazırda Türkiyə və Rusiyanın Ukraynaya münasibətdə mövqeləri kəskin ziddiyyətlidir. Üstəlik, rəsmi Ankaranın bu problemə münasibətdə mövqeyinin Azərbaycanla üst-üstə düşməsi də Kremli ciddi şəkildə narahat edir. Rusiya hər iki türk dövlətini Ukraynaya daha yaxın hesab etməyə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna səfərindən sonra Kremlə yaxın siyasi dairələrdə iki müttəfiq türk dövlətinin ortaq hərəkət etməsi barədə qənaətlər yaradıb. Ancaq Kreml üçün Türkiyənin Rusiya və Ukrayna vasitəçilik təklif etməsi hazırda böyük önəm daşıyır. Ona görə də Türkiyə liderinin həm Rusiya, həm də Ukrayna prezidentlərini danışıqlar üçün Ankaraya dəvət etməsinə Kremldən müsbət reaksiya verilib. Sadəcə, Kremldə hesab edirlər ki, Türkiyənin vasitəçiliyi ilə danışıqlar prosesinin başladılmasının hələ vaxtı çatmayıb. Ona görə də Prezident Putinin Ankaraya nə vaxt səfər edəcəyini konkretləşdirməyə tələsmirlər. Hesab etmək olar ki, Kreml Türkiyənin vasitəçilik missiyasına hələlik bir qədər ehtiyatlı yanaşır".

> "Kreml Ankaranın vasitəçilik missiyasına güvənmək məcburiyyətində qalacaq"

*E.Xalidbəylinin sözlərinə görə, Rusiya Türkiyə ilə yaxın tərəfdaşlıq münasibətlərini nəzərə alaraq, rəsmi Ankaradan daha sərfəli mövqe gözləyir:* "Hələlik bunun baş verəcəyi qətiyyən nəzərə çarpmır. Türkiyə prezidenti Ukraynanın ərazi bütövlüyünün toxunulmazlığı və Krımın ilhaqı ilə bağlı məsələlərə münasibətdə rəsmi Ankaranın mövqeyinin dəyişməyəcəyini vurğulayır. Üstəlik, Prezident Ərdoğan Rusiyanın Ukraynaya hərbi müdaxilə edəcəyi təqdirdə, Türkiyənin NATO çərçivəsində öz öhdəliklərini yerinə yetirəcəyini də vurğulayır. Bunları nəzərə aldıqda, vəziyyətin kifayət qədər qəliz olduğu qətiyyən şübhə doğurmur. Kreml Ukrayna ilə anlaşmaq deyil, məhz Rusiyanın strateji hədəflərinə çatmaq, hətta bunun üçün savaşmaq barədə düşünür. Halbuki, iki dövlət arasında vasitəçilik missiyasını öz üzərinə götürməyə çalışan Türkiyə Rusiyanın bu mövqeyi ilə qətiyyən razı deyil. Rəsmi Ankaranın qənaətinə görə, Rusiya savaşa yola aça biləcək bütün addımlardan mütləq çəkinməlidir. Çünki həmin region daha bir müharibəyə qətiyyən tab gətirə bilməz".

**Siyasi şərhçi vurğulayıb ki, Ukrayna böhranı nə qədər qəliz məzmun daşısa da, Ankara iki qonşu ölkəni barışdırmağa çalışır:** "Rusiyanın hədəfləri ilə Türkiyənin mövqeyi arasında kəskin ziddiyyətlər mövcuddur. Bu isə o deməkdir ki, Kreml Ankaranın vasitəçilik təklifini geri çevirərsə, Türkiyə Rusiyanın deyil, məhz Ukraynanın yanında yer almaq məcburiyyətində qala bilər. Ona görə də rəsmi Ankara Ukrayna böhranına münasibətdə diplomatik manevrlərə üstünlük verir. Ukrayna böhranının qlobal savaşa çevrilməsi Türkiyənin maraqlarına cavab vermir. Ankara ABŞ və NATO ilə Türkiyənin müttəfiqlik münasibətlərinin tamamilə korlanmasını istəmir. Digər tərəfdən Türkiyə Rusiya ilə iqtisadi-ticari tərəfdaşlığının pozulmasına da həvəsli deyil. Nəhayət, yeni savaş poliqonuna çevrilmə təhlükəsi qarşısında olan Ukraynanı xarici hərbi müdaxilədən qorumağa cəhd göstərir. Türkiyə NATO və Rusiyanın gözləntilərindən tamamilə fərqli missiya planlaşdırmağa çalışır. Birbaşa təmaslar böyük uğursuzluqla nəticələndiyindən Amerika və NATO Türkiyə tərəfindən yürüdüləcək vasitəçilik missiyasına ehtiyac duyur".

Müsahibimiz qeyd edib ki, tərəflər arasında hərbi toqquşma ehtimalı gücləndikcə, Rusiya da Türkiyənin vasitəçilik missiyasına güvənmək məcburiyyətində qalacaq: "Türkiyə çoxvektorlu vasitəçilik imkanlarına malikdir. ABŞ-Rusiya, NATO-Rusiya, həm də Ukrayna-Rusiya təmaslarına vasitəçilik edə biləcək yeganə dövlətdir. Türkiyədən daha uğurlu vasitəçinin tapılması savaş təhlükəsi ilə üz-üzə olan tərəflər üçün o qədər də asan olmayacaq. Tərəflər həlledici məqamda Türkiyənin vasitəçiliyi ilə barışmaq məcburiyyətində qala bilərlər. İndiki situasiyada bunun nə vaxt baş verə biləcəyindən danışmaq hələ bir qədər tezdir. Tərəflər bir-birinə qarşı hərbi-siyasi manevr imkanlarını hələ tam tükətməyiblər".

# Xaricdən gələn şübhəli zənglər bloklanıb

## Osman Gündüz: "Atılan addımlardan sonra hücum xarakterli zənglər, informasiyaların ələ keçirilməsi kimi halların sayı kifayət qədər azalacaq"

**Xaricdən gələn şübhəli zənglər bloklanıb. Keçən ilin dekabrında Azərbaycanın mobil operatorlarına vətəndaşların mobil telefonlarına xaricdən gələn şübhəli zəngləri bloklamaq tapşırılıb.**



Bu barədə "Azərbaycanda rəqəmsal inkişaf və nəqliyyat sahəsində prioritetlər" adlı tədbirdə çıxışı zamanı Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov deyib. R.Rüstəmov bildirib ki, bu cür zənglərin 90 faizə yaxını bloklanıb:

"Bu işlər fırıldaq halların qarşısının alınmasına yönəlib. Mobil qurğularda klonlaşdırılmış IMEI nömrələrin müəyyən edilməsi ilə də bağlı işlər aparılır".

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında bildirib ki, şübhəli zənglər vasitəsilə vətəndaşlar təhdid olunur:** "Onların şəxsi, maliyyə, bank və s. kimi məlumatları ələ keçirilir. Bu proseslərdən biri də xaricdən gələn zənglərlə bağlı idi. Mobil operatorlar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tövsiyələrindən yararlanaraq öz sistemlərində müəyyən texniki tənzimləmələr həyata keçirməklə bu tip zənglərin sayının minimuma endirilməsini həll ediblər. Artıq bununla bağlı nazirlik açıqlama verib. Əhalinin narazılığına səbəb olan problemlər üzrə atılan addımlardan sonra vətəndaşlara gələn naməlum, hücum xarakterli zənglər, informasiyaların ələ keçirilməsi kimi halların sayı kifayət qədər azalacaq. Bununla yanaşı, vətəndaşlar da ayıq-sayıq olmalıdırlar. Özlərinin elementar informasiya təhlükəsizliyi qaydalarına əməl etməlidirlər. Bəzən nömrəyə naməlum zənglər, gözlənilməyən, qeyri-adi mesajlar, müxtəlif linklər gəlir. Belə məsələlərdə şəxslərin bir qədər diqqətli olması arzuolunandır. Həmçinin zəruri, elementar təhlükəsizlik qaydalarına riayət edilməsi doğru olar. Beləliklə onları müxtəlif təhdidlərdən qoruya bilər".

Sücayət Mehti

# Taksi duracaqlarına daxil olmayın!

## Burada avtomobil saxlayanlar 40 manat cərimələnəcək



**Taksi duracaqlarında başqa avtomobil saxlayan sürücülər cərimələnəcək. İnzibati xətalar məcəlləsinə ediləcək dəyişikliyə əsasən artıq bu duracaqlarda yalnız taksi tanınma nişanı olan avtomobillər park ediləcək.**

Artıq taksi duracaqlarında başqa avtomobil saxlayanlar 40 manat cərimələnəcək.

Taksi duracaqlarında başqa nəqliyyat vasitələrinin dayanmasına və durmasına görə cərimə müəyyənləşir. Bu, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsində öz əksini tapıb. Dəyişikliklə 5.14 nişanı ilə işarələnmiş minik taksilərinin duracaq yerlərində digər nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə cərimə məbləği 20 manatdan 40 manata qaldırılır. Taksi sürücüləri cərimə məbləğinin artırılmasını müsbət qarşılasalar da, duracaqların sayının az olduğunu deyirlər.

Nəqliyyat üzrə ekspert Ərşad Hüseynovun sözlərinə görə, dəyişiklik illərdir mövcud olan taksi duracaqları problemini həll etmək üçün olduqca effektiv addımdır. Ekspertin fikrincə qanun layihəsinə edilən bu dəyişikliklə yanaşı bir sıra əlavələr də olmalıdır.

*Qeyd edək ki, qanun layihəsinə edilən dəyişikliklə dayanma, durma, parklanma, o cümlədən ödənişli parklanma ilə bağlı cərimələr də artırılacaq.*

# Bazarlar əvvəlki qaydada işləməlidir

## İnhisarçılar istehsalçının qoyduğu qiyməti çox şişirdirlər



**2021-ci ildə ən çox qiymətləri artan əsas ərzaq məhsulları bəlli olub, ən yüksək bahalaşma tərəvəzlərdə qeydə alınıb.**

Dövlət Statistika Komitəsi xəbər verir ki, 2021-ci ilin dekabr ayında 2020-ci ilin dekabr ayı ilə müqayisədə ən yüksək bahalaşma tərəvəz məhsullarında qeydə alınıb. Belə ki, tərəvəzlərin qiyməti 58,7 faiz artıb. Təkcə dekabrda ondan əvvəlki ayla müqayisədə tərəvəzlərin qiyməti 9,6 faiz qalxıb.

Ötən ilin dekabrında 2020-ci ilin dekabrına nisbətən tərəvəzlərdən sonra ən çox bahalaşma kərə və bitki yağlarında (14,1 faiz), süd və süd məhsulları, yumurtada (14 faiz), balıq və balıq məhsullarında (12,6 faiz), meyvələrdə (12,4 faiz), qənd, cem, bal, şokolad və konfetlərdə (12,1 faiz) olub.

Həmçinin çörək, çörək məmulatları və yarmalar 11 faiz, çay, qəhvə, kakao 8 faiz, tütün məmulatları 8,3 faiz, ət və ət məhsulları 4,3 faiz qalxıb.

**Ərzaq bazarında qiymətlərin artması ilə bağlı problemi "Şərq"ə şərh edən iqtisadçı-ekspert Elşad Məmmədov Azərbaycanda yerli resurslar tərəfindən lazımi həcmdə kənd təsərrüfatı məhsullarının istehsal olunmadığını bildirib.**

"Yerli sahibkar məhsulu yetişdirsə belə onun bazara çıxarılması ilə bağlı çox böyük problemlərlə üzləşir. Məhsul rayondan gəlib Bakıda satış nöqtələrinə çıxanda qiymətdə dəfələrlə fərq olur. Bazarların olmaması, iri supermarketlər tərəfindən kənd təsərrüfatı məhsulları dövriyyəsinin artması bu istiqamətdə problemlərin çoxalmasına səbəb oldu. Bu şəbəkələr istehsalçının qoyduğu qiyməti müəyyən hallarda dəfələrlə şişirdir. Ancaq fundamental problem ölkədə lazımi dərəcədə daxili istehsalın olmaması və yetişdirilən məhsulun da müəyyən hissəsinin ixrac olunmasıdır. Bu zaman daxili bazara yetərli həcmdə yerli məhsul qalmır və ölkəyə lazım olan məhsullar xaricdən idxal edilir. Nəticədə müvafiq xərclər çoxalır və daxildə satış qiymətləri artır. Burada sistemli yanaşmaya ehtiyac var. Məhsulların yetişdirilməsi, emal edilməsi artırılaraq daxili istehlak bazarı lazımi səviyyədə təmin olunmayınca bu problemlər davam edəcək. Eyni zamanda dünyada inflyasiya sürətlə artır. Əgər biz vaxtında idxaldan asılılığımızı azaltmasaq məhsulların qiyməti daha da bahalaşacaq".

**İqtisadçı problemin həllinin 3 istiqamətdə aparılmalı olduğunu vurğulayıb:**

"Daxili istehsal artırılmalıdır, ölkəyə idxal olunan məhsullar yerli məhsullarla əvəz olunmalıdır və inhisarçılığı aradan qaldırılmalıdır. Xüsusən, inhisarçılıqda uduzan həm xalq, həm də dövlət olur. Prosesdə ən az əziyyət çəkən ticarət şəbəkələri isə udan tərəf olur və onlar öz statuslarından istifadə etməklə qiymətlərin artmasına şərait yaradırlar.

Qiymət artımının mart və ya hansısa digər ayla məhdudlaşmasını gözləmək düzgün deyil. Bunun üçün ilk növbədə istehsalçıların birbaşa satış bazarlarına çıxışı təmin olunmalıdır. Hazırda bazarlar bir-bir bağlanır, yerində isə yeni binalar tikilir və ya iri supermarketlər açılır. Bu, destruktiv yanaşmanın göstəricisidir və yolverilməzdir. Bazarlar əvvəlki qaydada işləməlidir. Amma bu zaman bazarlarda da inhisarçıların yaranmasına və burada qiymətləri şişirmələrinə icazə verilməməlidir. Bazarların mövcud olma səbəbi odur ki, istehsalçı ilə alıcı arasında birbaşa əlaqə olsun. Bu yolla qiymətləri xeyli dərəcədə aşağı salmaq mümkündür".

Sənan İsmayıl

**ABŞ öz səfirliyi vasitəsilə Rusiyanın təhlükəsizlik təminatı ilə bağlı tələbinə yazılı cavab verib. Eyni zamanda NATO Brüsseldə öz yazılı cavabını Rusiya nümayəndələrinə təqdim edib. Məzmun tam açıqlanmasa da, rəsmilərin açıqlaması Qərbin güzəştə getməyəcəyini göstərir.**



Hərbi alyansın baş katibi Yens Stoltenberq deyib ki, Rusiya Gürcüstan, Ukrayna və Moldovadan öz ordularını çıxartmalıdır. O bildirib ki, NATO "açıq qapı" siyasətindən qətiyyən imtina etməyəcək. Rusiya ilə ciddi fikir ayrılığının olduğunu qeyd edən Stoltenberq məhz buna görə dialoqu vacib saydığını bildirib və Rusiya ilə "birbaşa əlaqə xətti" yaradılmasını təklif edib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Putin ABŞ-ın təhlükəsizlik zəmanətləri ilə bağlı yazılı cavabını şəxsən oxuyub. Kreml sözçüsü Rusiyanın təhlükəsizlik zəmanətləri ilə bağlı təkliflərinə ABŞ-ın cavabının təhlil edilməli olduğunu deyib: "Əlbəttə, onların təhlil etmək üçün müəyyən vaxt aparacaq. Nəticə çıxarmağa tələsməyək". Peskov, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və ABŞ Dövlət katibi Entoni Blinkenin nə zaman görüşəcəyinə dair sual cavablandırarkən dəqiq tarix barədə hələlik anlaşmanın əldə olunmadığını qeyd edib: "İndiyə qədər onlar dəqiq razılığa gəlməyiblər. Görüşün mənalı olacağını bildiriblər, amma səhv etmirəmsə, hələlik onun tarixi ilə bağlı anlaşma yoxdur". O, ABŞ və Rusiya prezidentləri arasında görüşün mümkünlüyü ilə bağlı da suali cavablandırıb və əlavə edib ki, buna prezidentlər özü qərar verəcək: "İşgüzar səviyyədə müəyyən təmaslar olacaq. Bundan sonra görüş və danışıqlara ehtiyac olub-olmamasına və lazım gələrsə, nə vaxt keçiriləcəyinə prezidentlər özləri qərar verəcəklər". Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsi rəhbərinin birinci müavini Vyaçeslav Nikonov deyib ki, Amerikanın cavabını mənfi dəyərləndirmək olar. Deputat vurğulayıb ki, NATO-nun bəyanatlarında Rusiyanın narahatlığına dair heç nə nəzərə alınmayıb. Xatırladaq ki, Rusiya Gürcüstan və Ukraynanın NATO-ya qəbul edilməyəcəyi barədə təminat, hərbi blokun 1997-ci il sərhədlərinə qayıtması və s. kimi tələblər qoymuşdu.

# NATO Rusiyanın 3 tələbindən ikisini rədd edib

## Rusiya prezidenti ya Vaşinqtonun və Brüsselin cavabını qeyri-qənaətbəxş hesab edib Ukraynaya müdaxilə planını reallaşdıracaq...

> ...Ya da dialoqun davamını seçib Ukrayna ilə sərhəddəki qoşunlarını tədricən geri çəkəcək. Orta yol yoxdur

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında vurğulayıb ki, Qərbin cavabının mahiyyəti aydındır. Analitik bildirib ki, Amerika və müttəfiqləri Rusiya ilə NATO-nun genişlənib-genişlənməyəcəyi mövzusunu müzakirə etməyəcək:** "Hər bir dövlətin müstəqil xarici və təhlükəsizlik siyasəti var. Şimali Atlantika Blokunun qapıları açıqdır. ABŞ və NATO Rusiya ilə Şərqi Avropadakı hərbi bazalar mövzusunu müzakirə etmək niyyətində deyil. Qərb sadəcə Rusiya ilə silahlara nəzarət, şəffaflıq və risklərin azalması mövzularını müzakirə etməyə hazırdır. Beləliklə, NATO Rusiyanın 3 tələbindən ikisini rədd edib. Aydındır ki, bu cavab Kremli qane etməyəcək. "Silahlara nəzarət, şəffaflıq və risklərin azaldılması" amorf mövzulardır və Kremli maraqlandırmır. Rusiya Prezidenti Vladimir Putinin təbirincə desək, Vaşinqton verdiyi vədi yerinə yetirmir".

**E.Şahinoğlu bəyan edib ki, Kreml Vaşinqtona və Brüsselə 3 tələb irəli sürməklə təşəbbüsü ələ keçirdiyini düşünürdü:** "İndi tam tərsidir, Vaşinqton və Brüssel tələblərə yazılı cavab göndərməklə topu Kremlə atıb. Rusiya prezidenti ya Vaşinqtonun və Brüsselin cavabını qeyri-qənaətbəxş hesab edib Ukraynaya müdaxilə planını reallaşdıracaq, ya da dialoqun davamını seçib Ukrayna ilə sərhəddəki qoşunlarını tədricən geri çəkəcək. Orta yol yoxdur. Vaşinqton Avropadakı müttəfiqlərini indidən ona hazırlayır ki, Rusiya köhnə qitəyə enerji daşınmasını dayandırsa, alternativlər reallaşmalıdır. Bu o deməkdir ki, Vaşinqtonun özü də Kremlin müsbət cavabına ümid etmir".

İsmayıl Qocayev



# Ermənistan mediası Azərbaycanın siyasi ekspertlərini izləyir

## Qonşu ölkənin mətbuatı Asif Nərimanlının fikirlərindən Paşinyana qarşı istifadə edir

**İsmayıl Qocayev**

**Ermənistan mediası siyasi şərhçi Asif Nərimanlının keçmiş ombudsman Arman Tatoyanla bağlı təhlilinə istinad edərək məqalələr dərc edib.**

Düşmən mətbuatı azərbaycanlı analitikin yazısından Nikol Paşinyan hakimiyyətinə qarşı istifadə edərək Tatoyanın gedişini İrəvan hökuməti ilə yanaşı, rəsmi Bakıya da sərf etdiyini bildirib.

**Təhlilinin Ermənistan KİV-lərində rezonansa səbəb olması ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Asif Nərimanlı deyib ki, Ermənistanın müxalif mediası onun fikirlərini Paşinyan hakimiyyətinə qarşı istifadə edir.** Analitikə görə, bununla erməni cəmiyyətinə sübut etmək istəyirlər ki, Paşinyan Tatoyanı Azərbaycana görə bu postdan uzaqlaşdırdı: "Bu, təbliğat xarakterli yanaşmadır və əsas hədəf daxili auditoriyadır. Lakin dediyim kimi, Paşinyan Tatoyanı özünə problem yaratdığı üçün göndərdi. Burada başqa məqam da diqqət çəkir. Bu, bir daha onu göstərir ki, Ermənistan mediası Azərbaycan ictimaiyyətini, xüsusən siyasi ekspertlərini yaxından izləyir. Bu, bizim medianın Ermənistanın gündəminin formalaşdırılmasında rol oynaması baxımından müsbət haldır. Bu məqamdan sosial şəbəkələrdə daha səmərəli istifadə edə bilərik. Eyni zamanda, məsələlərə "düşmən izləyir" prinsipi ilə də yanaşmalıyıq. Mediada ölkəmizin milli maraqlarına zidd olacaq materiallara yol verməməliyik, xüsusilə hərbi məsələlərdə həssas olmalıyıq". A.Nərimanlı deyib ki, Arman Tatoyan keçmiş hakimiyyətin dövründə qalan ombudsman idi və müharibədən sonra Paşinyan hakimiyyətinə problemlər yaradırdı: "Bu təkcə Azərbaycanla yox, hakimiyyətin atdığı addımlarla bağlı idi. Misal üçün, Gorus-Qafan yolunun Azərbaycanın suveren hissəsinə düşən ərazisində gömrük postunun qurulması həmin ərazidə bir neçə erməni kəndinin gediş-gəlişinə çətinlik yaratmışdı. Ermənistan hakimiyyəti alternativ yol təklif edirdi. O cümlədən, bu yolun yenidən qurulması ilə bağlı tədbirlər görürdü. Tatoyan isə Paşinyanın erməniləri sakitləşdirmək siyasətinə qarşı çıxırdı. Bununla yanaşı, davamlı şəkildə Azərbaycana qarşı uydurma ittihamlar səsləndirirdi. Gah sərhəddə Azərbaycan Ordusunun "hücum" etdiyini iddia edir, gah mövqelərin dəyişməsindən danışır, gah da müharibə vaxtına aid qondarma "hərbi cinayətləri" gündəmə gətirirdi. Hətta Ermənistan Müdafiə Nazirliyi Tatoyanın iddialarını bir neçə dəfə təkzib etmək məcburiyyətində qalmışdı. Onun Azərbaycana aid saxta iddiaları erməni cəmiyyətində təşvişə səbəb olurdu. Qəribə mənzərə yaranmışdı, insan hüquqlarını qorumalı olan ombudsman daha çox siyasi xarakterli fəaliyyət göstərirdi. Təbii ki, bu, Ermənistan hakimiyyəti tərəfindən qəbul edilmirdi". Ekspert vurğulayıb ki, Paşinyan hakimiyyəti də ombudsman seçkilərində öz namizədini irəli sürdü və parlamentdə səsvermə ilə Tatoyanı bu postdan uzaqlaşdırdı: "Bunun Azərbaycanın da maraqları kontekstində müsbət olduğunu yazmışdım. Tatoyan faktiki olaraq erməni cəmiyyətində anti-sülh əhval-ruhiyyəsini qaldırırdı və bu müharibədən sonra regionun gələcəyinə uyğun deyil. Lakin bu o demək deyil ki, Ermənistan hakimiyyəti Tatoyanı Azərbaycana qarşı iddialarına görə uzaqlaşdırıb. Tatoyan Paşinyan hakimiyyətinə problemlər yaradırdı, hakimiyyət də problemi həll etdi".

> "Paşinyan Tatoyanı Azərbaycana görə vəzifəsindən uzaqlaşdırmayıb"

# Paşinyan haqqa gəlir



## Baş nazir Türkiyəyə nəfəs qapısı kimi baxır



## Ermənistanın bir qonşu dövlət kimi öz aqressiyasından əl çəkməsi region üçün də yaxşıdır

**Ermənistanın Baş naziri Nikol Paşinyanın Türkiyəyə səfəri gözlənilir. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Mərkəzi Afrika Cümhuriyyətindən olan həmkarı Sylvie Baipo-Temonla birlikdə keçirdiyi mətbuat konfransında bu məsələ ilə bağlı danışıb.**

Nazir Türkiyə-Ermənistan əlaqələrinin normallaşması üçün bu kimi addımların vacib olduğunu vurğulayıb: "Paşinyan Türkiyə səfəri ilə bağlı söz verib. Xüsusi nümayəndələrin Moskvada ilk görüşü olub. Biz mütəmadi olaraq telefonla əlaqə saxlayırıq. Fevral ayından etibarən qarşılıqlı uçuşlar başlayacaq. Antaliya Diplomatiya Forumunda 50 nazir, 30 beynəlxalq təşkilatın nümayəndəsi iştirak edəcək. Hər kəsin səsinin eşidilməsini istəyirik. Biz buraya Ermənistan nümayəndələrini də dəvət etmişik. Ermənistanın Baş naziri Nikol Paşinyan da gələcəyini deyib. Gəlsələr, məmnun olarıq".

Qeyd edək ki, Paşinyan Türkiyə tərəfinin təklifini yüksək qiymətləndirdiyini, bunu dəyərləndirəcəyini deyib. Səfərdə Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan və Ermənistanın Türkiyə üzrə xüsusi nümayəndəsi Ruben Rubinyan da iştirak edəcək.

**Politoloq Tofiq Abbasov N.Paşinyanın Türkiyəyə gözlənilən səfəri ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, Ermənistan hazırda regionda ən zəif bənddir:** "Bu təkcə onun hərbi kampaniyalarda Azərbaycana uduzması ilə bağlı deyil. Ölkə uzun müddət idi ki, millitarizm siyasəti yürüdərək özünün bütün imkanlarını, büdcə vəsaitlərini, xaricdən gələn ianələrinin hamısını silah-sursatın alınmasına sərf edirdi. Ona görə də hazırda Ermənistan iqtisadiyyatında dərin bir böhran yaşanır. Doğrudur, ikinci Qarabağ müharibəsi Azərbaycan ərazisində getdi. Amma bundan ən çox zərər çəkən rəsmi İrəvan oldu. Hazırda onların ən böyük ümidi dünya bazarında ixracının artmasıdır. Bu, Ermənistana bir qədər yüngüllük gətirə bilər. Ancaq ümumi mənzərə yenə də dəyişməyəcək".

**T.Abbasova görə, hazırda rəsmi İrəvanın əsas çıxış yolu qonşu ölkələrə qarşı yürütdüyü siyasətə yenidən baxmaq və normal münasibətlərə qayıtmaqdır:** "Bilirsiz ki, Ermənistan aqressiv və işğalçı siyasət yürütdüyü üçün Azərbaycan və Türkiyə onunla əlaqəsini kəsdilər. Buna görə də rəsmi İrəvan bütün dünyaya car çəkirdi ki, guya, bu ölkələr blokadadır. Halbuki, belə bir şey yox idi. Iki əsas qonşu dövlətlə əlaqələrini sıfıra endirdiyi üçün o, nə öz ehtiyaclarını ödəyə bilir, nə də iqtisadiyyatda gördüyü işlər faydalı olurdu. İndi isə onun önündə böyük imkanlar açılır. Çünki həm Azərbaycan, həm də Türkiyə ona əməkdaşlıq təklif edir".

**Politoloqun fikrincə, hazırda Ermənistan dərin məğlubiyyət acısı yaşadığı üçün Azərbaycanla tez bir zamanda münasibət qura bilmir:**

"Bu səbəbdən o, Türkiyə ilə əlaqələrin bərpasında bir qədər israrlıdır. Çünki xaricdə olan diaspora rəsmi İrəvanı sövq edir ki, heç olmasa, rəsmi Ankara ilə münasibətləri bərpa etsin. Bu, Ermənistan üçün çox vacib bir məsələdir. Məlum olduğu kimi, fevral ayının ilk günlərində artıq tərəflər arasında İstanbul-İrəvan-İstanbul reysi fəaliyyətə başlayacaq. Faktiki olaraq indiki inkişaf, həm də kommunikasiyaların açılmasını aktuallaşdırır. Beləcə, Türkiyə Ermənistan üçün böyük imtiyazlı şərait yaradır".

*T.Abbasov rəsmi Bakının da tərəflər arasında əlaqələrin bərpasına heç bir etirazının olmadığını diqqətə çatdırıb:*

"Ermənistanın bir qonşu dövlət kimi tez bir zamanda normal düşünüb, öz aqressiyasından əl çəkməsi region üçün də yaxşıdır. Fikrimcə, Paşinyanın Türkiyə səfərində də vacib məsələlər danışılacaq. Burda rəsmi İrəvana bir daha bildirəcək ki, onun problemləri məhz yürütdüyü yarıtmaz siyasəti ilə bağlıdır".

**Günəş Mərd**

# Mədəniyyət naziri Kəlbəcərə nümayəndə təyin etdi

**Mədəniyyət Nazirliyinin Kəlbəcər rayonu üzrə nümayəndəsi vəzifəsinə təyinat olub.**

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, bununla bağlı mədəniyyət naziri Anar Kərimov əmr imzalayıb.

Əmrə əsasən, Xaliq Dağyunus oğlu Muxtarov nazirliyin Kəlbəcər rayonu üzrə nümayəndəsi vəzifəsinə gətirilib.

# Naxçıvanda tağım komandirinin meyiti tapılıb

## Eşqin İsmayıllı ürək çatışmazlığı səbəbindən vəfat edib



**Yanvarın 27-də "N" saylı hərbi hissədə tağım komandiri vəzifəsində xidmət edən 1995-ci il təvəllüdlü İsmayıllı Eşqin Etibar oğlunun meyitinin Culfa rayonunda yaşadığı evdə aşkar edilməsi ilə bağlı Culfa rayon prokurorluğunda araşdırma aparılır.**

Respublika Baş Prokurorluğundan verilən məlumata görə, Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, eləcə digər zəruri tədbirlər həyata keçirilib. İlkin məlumata əsasən, Eşqin İsmayıllı ürək çatışmazlığı səbəbindən vəfat edib.

# Türk Hava Yolları İdarə Heyətinin sədri istefa verib



**Türk Hava Yolları (THY) İdarə Heyətinin və İcraiyyə Komitəsinin sədri İlker Aycı tutduğu vəzifədən istefa verib.**

Trend bu barədə Türkiyə mediasına istinadən xəbər verir.

Aycının yerinə İnvestisiya və Texnologiya üzrə Baş Direktor Köməkçisi Ahmet Bolat gəlib.

*Qeyd edilir ki, THY İdarə Heyətinin sədri İlker Aycı yanvarın əvvəlində yanacağın bahalaşmasından sonra başlayan etirazlar səbəbilə Qazaxıstanda qalıb. Həyat yoldaşı ilə yük təyyarəsində Türkiyəyə qayıdan Aycının komanda yoldaşlarını orada qoyması tənqidlərə səbəb olub.*

# Yazıqlar olsun!

## Müəllimin nüfuzunu qəsdən gözdən salmaqla cəmiyyət heç nə qazanmayacaq



**Paytaxtdakı 165 nömrəli məktəbdə baş verənlər ətrafında müzakirələr səngimir. Məlum hadisəyə görə fənn müəlliminə töhmət verilməsi isə vəziyyəti bir az da gərginləşdirib. Əsasən də müəllim müdafiə olunur və töhmət almağı haqq etmədiyi bildirilir. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov isə töhməti əsaslandırmağa çalışıb. Və sosial şəbəkə hesabında belə yazıb:**

"Cəmiyyətin bir parçası olan, müəllimi də, şagirdi də, direktoru da cəmiyyətin üzvlərindən ibarət olan məktəbdə baş verən hadisələrə ictimai maraq təbiidir. Bununla belə, bir daha 165 nömrəli məktəbin bir neçə şagirdinin uyğun olmayan hərəkətlərini əks etdirən videogörüntü ilə bağlı görülmüş tədbirlərə aydınlıq gətirməyin lazımlı olduğunu düşündüm. Əziz dostlar, hər birinizin fikrinə hörmətlə yanaşıram. Ancaq məlumdur ki, müəllim dərsin təşkilinə görə cavabdehlik daşıyır. Həmin görüntülərdən çıxan ilk nəticə budur ki, müəllim dərs prosesini qaydalara uyğun təşkil etməyib. Uşaqların davranışı qəbulolunan deyil. Ancaq müəllim buna etiraz etməli, normal iradlar bildirməli, laqeyd qalmamalıdır. Ən kritik məqamda direktor müavini, direktor məlumatlandırılmalı, birgə tədbirlər görülməlidir. Uşaqlarla məktəb rəhbərliyi söhbət apara bilər, digər prosedur tədbirlər görülər, valideynlər dəvət olunar və s. Ancaq təəssüf ki, müəllim sinfi idarə etmir, bununla da uşaqlara lazımsız hərəkətlər üçün imkan vermiş olurdu. Uşaqlar haqqında da tədbirlər görülüb, valideyn və şagirdlərin izahatları alınıb, uşaqlar üzrxahlıq edib. Həmçinin həmin məktəblilər polis tərəfindən müvafiq profilaktiki tədbirlər görülməsi üçün nəzarətə götürülüb".

Sektor müdirinin açıqlaması yanan alovu söndürmək əvəzinə daha da alovlandırıb. "Zavallı" müəllimi (nə qədər ağır ifadə olsa da) müdafiə edənlər töhmətin təyinatının düzgün olmadığını qeyd edir, müəllimin günahsız qurban olduğunu deyirlər. Hətta millət vəkili Fazil Mustafa müəllimin hüquqlarını müdafiə etməyə hazır olduğunu bəyan edib. Ümumi fikir budur ki, müəllimi hörmətdən salmaq olmaz. Videodan da görünür ki, müəllim artıq "təslim olub". Böyük ehtimalla şagirdlərin intizamsızlığı birinci hal deyil. "Fağır" müəllimsə şagirdlərin, "dabbaqda gönünə bələddir", ona görə də daha səsini çıxarmır, başını aşağı salıb, yazı-pozuyla məşğuldur. Elə buna görə də ona töhmət verilir. Başına sinifdə oyun açılan da müəllim, cəzalanan da. Yanan da mən, yaman da! BŞTİ sektor müdirinin açıqlamasındakı "direktor müavini, direktor məlumatlandırılmalı, birgə tədbirlər görülməlidir. Uşaqlarla məktəb rəhbərliyi söhbət apara bilər, digər prosedur tədbirlər görülər, valideynlər dəvət olunar və s." sözlər isə artıq çoxdan sürət almış qatarın uzaqdan görünən tüstüsünə bənzəyir. Məşhur mahnıda deyildiyi kimi "bu qatarın dalınca baxma!". Əminliklə demək olar ki, məktəblərdə bu cür hadisələr bəlkə də hər gün baş verir. Məktəb direktoru da məlumatlandırılır, valideynlər də. Faydası yoxdur, amma. Çünki bəzi uşaqlara nəzarət itib artıq. Bunun da günahı təkcə müəllimdə deyil. Tərbiyə ailədən başlayıb, həyətdə, uşaq bağçasında, məktəbdə davam etməlidir. Nə bəzi valideynlər övladlarına tərbiyə verə bilir, nə də təhsil müəssisələri uşaqlara. Evdə smartfon əlindən düşməyən uşağın baxdığı "Tik-Tok"dakı əxlaqsız paylaşımlardır. Biri elə bu günlərdə sosial şəbəkələrdə "çarşab-çarşab" nümayiş olunan həmin video. Nə qədər uşaq baxıb ona. Eləsi var, fikriləşir ki, biz də sinifdə belə edək!.. Sosial şəbəkənin qarşısını almaq mümkün deyil. Tamam. Evdə uşağı smart fondan ayırmaq da mümkün deyil? Ya bunu etməyə ana-ataların həvəsi, marağı yoxdur? Uşaq nədi ki! İndi yekə-yekə kişilər, qadınlar telefona sarılıb "iqra" oynayır. Bunu görən uşaq nə edəcək ki?! Daim deyilir, kompleks tədbirlər görülməlidir, bunu da zəhmət çəksin, əlaqədar qurumlar düşünsün. Birini biz deyək: sinifdə, dərs saatında mobil telefondan istifadə qadağan edilməlidir. Valideynlərin "biz bilməliyik uşaq nə vaxt dərsdən çıxır, hardadır" tipində şüvənliklərinə də məhəl qoymaq lazım deyil. Sinifdə uşaq dərsiylə məşğul olsun, telefonlar da müəllim otağında, ya da başqa etibarlı yerdə saxlansın. Allah eləməmiş bir hadisə baş verərsə, telefonla əlaqə saxlansın. Şagird məktəbi tərk edəndə telefonu özünə qaytarılsın. Məlum məsələdir, bununla nə təhsilin, nə məktəbin, nə də müəllimin nüfuzu qalxmayacaq. Nüfuzsuzluğun kökləri çox dərinə gedib artıq. Amma heç olmasa şagirdin diqqəti dərsdə olar, mobil telefonda yox. Eybəcər videolar da paylaşılmaz.

> "Deyirlər, şagirdlərə qarşı kobudluq, zorakılıq olmaz. Bəli, olmaz. Bəs müəllimə qarşı kobudluq, hətta zorakılıq edən şagirdlərə qarşı hansı tədbirlər mexanizmi var?"

**Töhmət verilən müəllimə isə hüquqlarını müdafiə edə bilər. Bu barədə "Şərq"ə hüquqşünas Ələsgər Məmmədli danışdı:**

- Məktəbdə baş verənlər çox üzücü hadisədir. Ancaq burada müəllimi cəzalandırmaq məsuliyyətdən yayınmaqdır. Baş vermiş hadisədə ən müdafiəsiz tərəf müəllimdir. Amma cəzanı məhz ona verirlər. Burada bir müəllim deyil, məktəbin rəhbərliyi məsuliyyət daşıyır. Bütün günahı müəllimin üzərinə yükləmək düzgün deyil. Amma asan yol seçiblər və müəllimi cəzalandırmaqla məsələni bağlamaq yolunu tutublar. Müəllimi bu dərəcədə nüfuzdan, hörmətdən salmaq olmaz. Bu, cəmiyyətimizə yaxşı nəsə qazandırmayacaq. Hamımız görürük ki, müqəddəs müəllim peşəsi necə nüfuzdan düşür. Müəllim valideyn puluyla dolanan təbəqəyə çevrilib. Bu, cəmiyyətə yaxşı bir şey vəd etmir. Əksinə, meyarların itirilməsinə yol açır.





**Ə.Məmmədli töhmət almış müəllimənin hüquqlarını qorumağa tamamilə haqqı çatdığını dedi:** "Müəllimə əsassız töhmət almasıyla bağlı Təhsil Nazirliyinə müraciət etməlidir. Həmçinin də hüquqlarının pozulmasıyla bağlı məhkəmə qarşısında iddia qaldıra da bilər".

Deməli, səbrli davranan müəlliməyə töhmət verilir. Görəsən, o müəllimə şagirdlərlə kobud davransaydı, nə olacaqdı? Cinayət işi açılacaqdı? Deyirlər, şagirdlərə qarşı kobudluq, zorakılıq olmaz. Bəli, olmaz. Bəs müəllimə qarşı kobudluq, hətta zorakılıq edən şagirdlərə qarşı hansı tədbirlər mexanizmi var? Uşaqlar yetkinlik yaşında çatmayıbsa, məsuliyyətdən kənardılar. O zaman valideynləri məsuliyyətə cəlb edilsin. Bəlkə o zaman valideyn uşağının dərsini özü verər.

**Məlahət Rzayeva**

# "Limitli şəkildə" qarşılanma nə deməkdir?"

## Adil Qeybulla: "Orqan transplantasiyasında ən vacib məsələ donor bankının yaradılmasıdır"



**Cari ildən orqan transplantasiyasının limitli şəkildə icbari tibbi sığorta çərçivəsində qarşılanması nəzərdə tutulub. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib.**

Qeyd olunub ki, "Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri" cədvəlinə ümumilikdə 2550 sayda tibbi xidmət daxildir. Qeyd edək ki, Azərbaycanda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minib.

Orqan transplantasiyasının icbari tibbi sığorta çərçivəsində qarşılanacağı orqan transplantasiyası gərəkən vətəndaşlara hansısa üstünlüklər qazandıracaqmı?

**Tibb elmləri doktoru, Azərbaycan Dövlət Tibb Universitetinin professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında bu məsələnin həlli üçün ciddi işlərin görülməli olduğunu vurğuladı:**

- Bizdə statistikaya meyillilik güclüdür. Statistik rəqəmlər açıqlanır, amma işin mahiyyəti qaranlıq qalır. Birincisi, orqan transplantasiyasının "limitli şəkildə" qarşılanması nə deməkdir? Burada söhbət qiymətlərdən gedir, yoxsa həyata keçiriləcək əməliyyatların sayından? Bu, izah edilməlidir. İnsanlara düzgün, açıq şəkildə başa salınmalıdır ki, limitli qarşılanma dedikdə nə nəzərdə tutulur. Bəs donor məsələsi necə olacaq? Orqan transplantasiyasında ən vacib məsələlərdən biri donor bankının yaradılmasıdır. Bu, çox çətin işdir. Azərbaycanda yalnız doğmalar, ailə üzvləri, yaxın qohumların donorluğuna icazə verilir. Və bunun da cinayətkarlığın, orqan oğurluğunun, orqan satışının qarşısının alınması məqsədilə edildiyi bildirilir. Qohumların, ailə üzvlərinin günahı nədir? Niyə yalnız onlar donor kimi çıxış etməlidir? Normal halda orqan transplantasiyası üçün mütləq Donor Bankı yaradılmalıdır. Bunun üçün sağlam şəxslərdən, hansı ki kliniki ölüm, beyin ölümü keçirir, məhz tibbi ekspertizanın rəyi və qərarı ilə, ailə üzvlərinin də razılığı alındıqdan sonra sağlam orqanlar götürülməli və orqan köçürülməsi üçün növbə gözləyən xəstələrə köçürülməlidir. Hazırda bizdə bu proses həyata keçirilir? Vəfat etmiş şəxsin doğmaları meyitin tibbi müayinəsinə, ölümün nədən baş verdiyinin araşdırılması üçün cəsədin müayinə edilməsinə heç razılıq vermirlər. Burada həm də psixoloji məqamlar var. İşin mahiyyətini bilməyənlər danışır, əsaslı bir iş də ortaya qoya bilmirlər. Heç olmasa, orqan transplantasiyası təcrübəsi olan ölkələrdən nümunə götürülməlidir. Qardaş Türkiyədə orqan nəqli ilə bağlı "Yol xəritəsi" var. Bunu öyrənsinlər, necə tətbiq edildiyinə baxsınlar. Elə iş görmək lazımdır ki, vətəndaşın xeyrinə olsun.

***"İşin mahiyyətini bilməyənlər danışır, əsaslı bir iş də ortaya qoya bilmirlər. Heç olmasa, orqan transplantasiyası təcrübəsi olan ölkələrdən nümunə götürülməlidir"***

**Məlahət Rzayeva**

---

**Azərbaycan rəsmiləri ilə iranlı siyasilərin qarşılıqlı səfərləri reallaşmaqdadır. İran təmsilçisinin ölkəmizə gəlişindən sonra Müdafiə naziri Zakir Həsənov da İrana yollanıb.**



# İranın dil tökməsi səbəbsiz deyil

Tehran əmin olmaq istəyir ki, Bakı anti-İran siyasətinə qoşulacaq, yoxsa qoşulmayacaq

Nazir iranlı həmkarları ilə iki ölkə arasında hərbi əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər. İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmmədhüseyn Bagiri deyib ki, Tehran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb. Onun sözlərinə görə, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi İranı sevindirir: "Biz öz ölkəmizin ərazi bütövlüyü kimi, Azərbaycanın da ərazi bütövlüyünə həssaslıqla yanaşırıq". Bagiri əlavə edib ki, İran Azərbaycanla hərbi sahədə əməkdaşlıqda maraqlıdır: "Təcrübə mübadiləsi üçün qarşılıqlı səfərləri artırmaq lazımdır. İran ordusu hərbi-tibbi və hərbi-texniki sahələrdə əməkdaşlıq imkanlarına malikdir. Qarşılıqlı əməkdaşlıq hər iki dövlətin ordusunun daha da güclənməsinə töhfə verə bilər". İranlı general qeyd edib ki, Tehran heç vaxt öz ərazisindən Azərbaycan əleyhinə istifadə olunmasına icazə verməz: "İran Azərbaycan Prezidentinin regionda "3+3" formatında əməkdaşlıq əlaqələrinin qurulması təklifini dəstəkləyir. Bölgə dövlətləri regiondakı problemləri həll etmək imkanına malikdir. Birmənalı şəkildə bəyan edirik ki, İran hər zaman Azərbaycanın yanında olacaq. Azərbaycan İran üçün dost və qardaş dövlətdir".

Bəzi təhlilçilər İranın Azərbaycanla əməkdaşlıqda səmimi olduğuna inansa da, əksini düşünənlər az deyil. Məsələn, politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında vurğulayıb ki, İran-Azərbaycan arasında münasibətlər həmişə dəyişkən olub. Siyasi şərhçiyə görə, İran Azərbaycanın müstəqilliyini həzm edə bilmir. Həmçinin, Bakının Qərblə münasibətlərinə qəzəblə yanaşır: "İran Xəzərdə və öz sərhədlərində NATO-nun olmasını istəmir. Münasibətlər heç vaxt tam normal məcraya yönəlməyəcək. Sadəcə indi ABŞ-Rusiya münasibətləri o həddə gərginləşib ki, yaxın gələcəkdə İranın hədəf seçilməyəcəyini heç kəs deyə bilməz. Azərbaycan bu məsələdə neytral qalmağa üstünlük verir. Rəsmi Bakı Tehranın nəzərinə çatdırmaq istəyir ki, İrana qarşı hərbi əməliyyatların öz ərazisindən ötürülməsinə imkan verməyəcək. İran Ermənistanla sıx əməkdaşlıq qurur, iqtisadi və hərbi baxımdan köməklik edir. Belə şəraitdə Azərbaycanla İran arasında səmimi dostluq münasibətlərindən danışmaq olmaz. Tehran əmin olmaq istəyir ki, Bakı anti-İran siyasətinə qoşulacaq, yoxsa qoşulmayacaq. Azərbaycanın praqmatik dövlət maraqları bu məsələdə neytral qalmağa üstünlük verir. Tehran Azərbaycanın düşməni olan ölkə ilə əməkdaşlığa davam edərsə, rəsmi Bakının İrana sərt şəkildə münasibətlərin səbəbini soruşmaq haqqı var. Güman etmirəm ki, yaxın vaxtlarda Tehran Ermənistana yardımdan əl çəksin".

***"İran-Azərbaycan münasibətləri həmişə dəyişkən olub, tezliklə normal məcraya yönəlməyəcək"***

**İsmayıl**

---



# Kişilərə 14 gün atalıq məzuniyyəti veriləcək?

## Sahib Məmmədov deyib ki, anlaşılan deyil, nazirlik ictimaiyyəti geniş məlumatlandırmalıdır

**Azərbaycanda kişilərə 14 gün ödənişli atalıq məzuniyyəti veriləcək. Bu məsələ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Milli Məclisə təqdim olunan yeni qanun layihəsində əks olunub. Vurğulanıb ki, layihədə bir çox təkliflər, eləcə də əmək məzuniyyətləri ilə bağlı bir sıra yeni təkliflər əksini tapıb. Təkliflərdən biri də Əmək Məcəlləsinin 125-ci maddəsinə dəyişiklik edilməsini nəzərdə tutur.**

Dəyişikliyə əsasən, hamiləliyə və doğuşa görə arvadı məzuniyyətdə olan kişilərə 14 təqvim günü müddətində ödənişli məzuniyyət veriləcək. Qanun layihəsi hazırda aidiyyəti qurumlarla razılaşdırma mərhələsindədir. Bu mərhələdən sonra layihə aidiyyəti üzrə təqdim ediləcək. Xatırladaq ki, Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov da mətbuata açıqlamasında ataların tam ödənişli əsaslarla məzuniyyətdən istifadə etməsi məsələsinin tezliklə Əmək Məcəlləsində öz əksini tapacağını deyib. Nazir müavini bildirib ki, ölkədə gender bərabərliyinin təmin edilməsi məqsədilə əmək qanunvericiliyi sahəsində bir sıra məqsədyönlü işlər aparılır.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov deyib ki, Əmək Məcəlləsində atanın və ya ailənin digər üzvünün qismən ödənişli sosial məzuniyyət hüququndan istifadə hüququ var.** Yəni uşağın anadan olmasından sonra 3 il müddətində istifadə oluna bilən qismən ödənişli sosial məzuniyyətdən ata və ya ailənin digər üzvü də istifadə edə bilər. Ekspertə görə, bu, o halda zəruri olur ki, ana daha çox əmək haqqı alır: "Ailənin əsas qazanc gətirəni olduğu üçün hamiləliyə və doğuşa görə məzuniyyət hüququ (dekret - red) başa çatdıqdan sonra ya özü, ya ata, ya da ailənin digər üzvü qismən ödənişli məzuniyyətdən istifadə edə bilir. Qismən ödənilən vəsait Dövlət Sosial Müdafiə Fondunun vəsaiti hesabına verilir. Doğuş nəticəsində ana vəfat etdikdə, tam ödənişli məzuniyyətin ikinci hissəsindən ata istifadə edə bilər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əmək Məcəlləsinin 169 maddəsinə yenidən əlavə və dəyişikliklərlə bağlı layihə hazırlayıb. Amma hələ veb səhifədə yerləşdirilməyib. Nazir müavininin "ataların tam ödənişli əsaslarla məzuniyyətdən istifadə etməsi məsələsi Əmək Məcəlləsində tezliklə öz həllini tapacaq" fikrini heç cür şərh edə bilmirəm. Yəni nə? Hamiləliyə və doğuşa görə nəzərdə tutulan 126 günlük məzuniyyətdən başqa hansı halda tam ödənişli sosial məzuniyyət növü var? Əmək Məcəlləsinin 127-ci maddəsinə görə, uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa üzvü uşağın 3 yaşı tamam olanadək qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdir. Amma bu halda tam ödənişli məzuniyyətdən söhbət getmir. Hər halda nazirlik yeni layihə ilə bağlı ictimaiyyəti daha geniş məlumatlandırsa yaxşı olar. "İctimai İştirakçılıq" haqqında qanunun tələbinə görə, dövlət orqanı hüquqi sənədlərin layihələrini ictimai şura üzvlərinə təqdim etməlidir. Bu, yazılı təklif və rəylər almaq üçün vacibdir".

**İsmayıl Qocayev**

---

# Müxalifətin müqavimət göstərməsi mənasızdır

## Paşinyan istədiyi adamı prezident seçdirə biləcək

**Ermənistan Prezidenti Armen Sarkisyanın istefasından sonra ölkədə siyasi vəziyyət yenidən dəyişib. Ermənistan qanunvericiliyinə görə, dövlət başçısı vəzifəsi uğrunda əsas mübarizə hazırkı prezidentin istefasından bir həftə sonra başlamalıdır.**

Ölkə prezidenti istefa qərarını açıqladıqdan sonra ona bir həftə müddət verilir və o, bu vaxt ərzində istefa ərizəsini geri götürə bilər.

Artıq Ermənistan parlamenti A.Sarkisyanın ərizəsini qəbul edib. Amma buna baxmayaraq artıq bəzi siyasi partiya və bloklar prezidentliyə namizəd axtarışına başlayıblar. Ermənistanın hakim Vətəndaş Razılaşması Partiyası öz namizədinin adını açıqlayıb. Partiyanın namizədi Baş nazir Nikol Paşinyan administrasiyasının rəhbəri Araik Arutyunyandır. O, əvvəllər Ermənistanın təhsil, elm, mədəniyyət və idman naziri işləyib.

Qeyd edək ki, keçmiş prezident Robert Koçaryan Ermənistan prezidentliyinə namizədliyini irəli sürməyəcək.

Parlamentin "Ermənistan" fraksiyasının üzvü, deputat Ohanes Hamoyan bildirib ki, "Ermənistan" blokunun prezidentliyə başqa namizədi olacaq.

Qeyd edək ki, qanuna əsasən Ermənistanın yeni prezidenti dövlət başçısı istefa verdikdən və ya səlahiyyət müddəti başa çatdıqdan 25 gün sonra, lakin 35 gündən gec olmayaraq seçilməlidir. Ermənistan prezidentini parlament seçir. Prezidentliyə namizəd iqtidar və müxalifət tərəfindən irəli sürülür. Prezidentliyə namizəd parlamentdə 4\1 səs çoxluğu ilə təsdiqlənir. Prezident isə deputatların 4-də 3-nün səs çoxluğu ilə seçilir. Seçki birinci dəfə baş tutmadıqda ikinci tur keçirilir. İkinci tura birinci turda ən çox səs toplamış iki namizəd buraxılır. Onlardan da deputatların 50 faizindən çoxunun səsini qazanan prezident seçilir.

Qanunvericiliyə əsasən prezident yaşı 40-dan az olmayan, son 6 ili Ermənistanda yaşayan, başqa dövlət qarşısında öhdəliyi olmayan, erməni dilini sərbəst bilən şəxs seçilə bilər.



Bəzi siyasi analitiklərin fikrincə, Ermənistanda prezident seçkiləri sakit keçməyəcək. Müxalifətlə iqtidar arasında ciddi qarşıdurma yaranacaq. Mübahisələr silahlı qarşıdurmaya qədər çata bilər.

Digər analitiklər isə düşünür ki, Ermənistan prezidenti vəzifəsinə hakim partiyanın namizədi seçiləcək.

**İrəvanda baş verən son siyasi proseslər barədə "Şərq"ə danışan politoloq Elxan Şahinoğlu bildirib ki, Ermənistan konstitusiyasına görə baş nazirin səlahiyyətləri prezidentdən daha yüksəkdir:** "Buna görə də Paşinyan öz tərəfdarlarından birinin namizədini irəli sürüb onun prezident olmasını təmin etməyə çalışır. Baş nazirin partiyası parlamentdə üstünlüyə malikdir. Ona görə də istədiyi birini prezident seçdirə bilər. Bu, birinci turda olmasa ikinci, üçüncü turda olacaq və sadə səs çoxluğu ilə prezident seçiləcək. Ancaq gələcəkdə referendum yolu ilə konstitusiya dəyişikliyinə gedib, prezident üsul-idarəsinə keçə bilər. Bununla da prezidentin səlahiyyətlərini artırıb özü də baş nazir vəzifəsindən prezidentliyə keçə bilər. Bu mübarizənin silahlı qarşıdurmaya qədər gedib çıxacağına inanmıram. Çünki prezidentin səlahiyyətləri o qədər də böyük deyil. Təbii ki, radikal müxalifət müqavimət göstərməyə çalışacaq. Amma hər şey parlamentdə səsvermə yolu ilə Paşinyanın istədiyi kimi olacaq.

Prezident dəyişikliyinin Nikol Paşinyanın planı olması inandırıcı deyil. Onun keçmiş prezidentlə bütün fikirləri heç də üst-üstə düşmürdü. Nəticədə Armen Sarkisyan qəfil istefa verdi və əsaslandırdı ki, daxili və xarici siyasətə təsir edə bilmir.

Artıq ombudsman postuna da öz namizədini irəli sürüb və təsdiqlənib. Yəni 3 əsas vəzifəyə - hökumətə, prezident kreslosuna və Ombudsman Aparatına Paşinyan nəzarət edəcək. Əlbəttə, müxalifət dirənməyə və müqavimət göstərməyə çalışacaq. Amma bunun heç bir nəticəsi olmayacaq".

**Sənan İsmayıl**

---

# Paşinyan Rusiyadan qopmaq istəyir

## Turab Rzayev: "Rəsmi Ankara ilə münasibətlərin normallaşdırılması hazırda rəsmi İrəvan üçün önəmlidir"

**"Ermənistan Rusiyanın mövqeyindən bir qədər uzaqlaşıb, Qərbə yaxınlaşmaq istəyir. Bu da onu hakimiyyətə gətirən, onu dəstəkləyən solçu qüvvələr, Avropadakı mərkəzi qüvvələrlə bağlıdır. Amma hazırda heç bir resursa malik deyil".**



*Bu barədə "Şərq"ə siyasi şərhçi Turab Rzayev bildirib. Analitikin sözlərinə görə, Rusiya avroməkanda onu qoruyur:*

"Buna görə ən uyğun variant Türkiyə ilə münasibətlərin loyallaşdırılması və Azərbaycanla sülh müqaviləsinin bağlanmasıdır. Rəsmi Ankara ilə münasibətlərin normallaşdırılması hazırda rəsmi İrəvan üçün önəmlidir. Çünki yalnız bundan sonra o, Rusiyadan nələrsə tələb edə bilər. Azərbaycanla sülh müqaviləsi də bu istiqamətdə atılacaq əsas addımlardandır. Ona görə də son günlər Paşinyan demarkasiya, delimitasiya, eləcə də yekun sülhlə bağlı ciddi mesajlar verir".

**T.Rzayev rus sülhməramlıları Qarabağ ərazisində olduğu müddətdə Rusiya ilə problemin yenə olacağını qeyd edib:**

"Sərhəddəki təxribatlarla Azərbaycanı və Ermənistanı şantaj altında saxlamaq çətin olacaq. Buna görə də rəsmi İrəvandan delimitasiya və demarkasiya, eləcə də yekun sülh ilə bağlı böyük gözləntilər var. Paşinyandan son günlər müsbət açıqlamalar gəlir. Zənnimcə, bu, Ermənistanın siyasi rəhbərliyinin avroməkan ilə bağlı qərarıdır. Onlar düşünürlər ki, Azərbaycanla sülh müqaviləsi bağlansa, Türkiyə ilə münasibətlər yaxşılaşsa, gələcəkdə Rusiyadan qorxmadan Qərbə inteqrasiya etmək daha rahat olacaq".

**Cəmilə ƏZİM**

---



# Rusiya ilə Ukrayna arasında müharibə olmayacaq

## Azər Rəşidoğlu: "Hər şey Amerikanın qəti mövqeyindən asılı olacaq"

**"Rusiya ilə Ukrayna arasında uzunmüddətli və irimiqyaslı hərbi əməliyyatların olacağını güman etmirəm".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Azər Rəşidoğlu bildirib. O, baş verənləri, sadəcə, soyuq müharibənin elementləri adlandırıb: "Rusiya NATO-nun Şərqə doğru genişlənməsini istəmir. NATO-nun Ukraynanı üzv etmək cəhdləri rəsmi Moskvanı qıcıqlandırır. Durumun qarşısını almaq üçün qabaqlayıcı addımlar atır. Rusiya nəzarət etdiyi ölkələrdə daha da aktivləşə bilər. Hər hansı hərbi müdaxilə ehtimalını yüksək qiymətləndirmirəm. Hər şey Amerikanın qəti mövqeyindən asılı olacaq. Avropa da birmənalı mövqe sərgiləmir. Digər tərəfdən qış aylarında müharibə aparmağın çətin olduğunu nəzərə almaq lazımdır".

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Bir dənə də qəzalı məktəb qalmayacaq

## Artıq təhsil ocaqlarımız simasını dəyişərək Avropa standartlarına uyğunlaşdırılır



**Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar.**

Bildirilib ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb. Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib. Bağça ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Uşaq bağçası zəruri mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı ərazidə oyun və idman meydançası da salınıb. Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi inşa edilib. Onu da qeyd edək ki, elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu Prezident İlham Əliyevin konseptual təhsil strategiyasının həyata keçirilməsinə əsaslı töhfə verir.

Qeyd edək ki, Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki tədris müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb, bu massivlərdə uşaqların və məktəblilərin təhsil ala biləcəyi məktəb və məktəbəqədər müəssisələrin olmadığı müəyyən edilib. Bu səbəbdən 2020-2021-ci illərdə Heydər Əliyev Fondun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub. Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıb.

**Təhsil kompleksinin önəmi ilə bağlı "Şərq"ə danışan təhsil eksperti Kamran Əsədov deyib ki, hazırda respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişiklikləri aparılır, bir çox dövlət proqramları və layihələr həyata keçirilir. Ekspert bildirib ki, son dövrlərdə təkcə paytaxt Bakıda deyil, ölkəmizin bütün regionlarında müasir məktəblər inşa edilir, yeni korpuslar tikilir:** "Məktəblərimiz öz simasını dəyişərək Avropa standartlarına uyğunlaşdırılır. Ümumiyyətlə, məktəb tikintisi son 20 ildən artıqdır ki, ölkədə prioritet olaraq qalmaqdadır. Yeni ümumtəhsil məktəblərinin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı nəticəsində, ümumilikdə, ölkə üzrə indiyədək. 1 milyondan çox şagirdin təlim-tədris şəraiti yaxşılaşdırılıb. Məktəblərin maddi-texniki bazasının bütövlükdə müasir tələblər səviyyəsinə çatdırılması məqsədilə onların təlim keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən tədris laboratoriyaları, kitabxana və idman infrastrukturu ilə təmin olunması istiqamətində də ciddi addımlar atılıb. Dövlətimizin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti danılmazdır. Belə ki, fondun təhsil sahəsində gördüyü işlər sırasında reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət kəsb edir. Qeyd edim ki, bu proses yalnız paytaxtı deyil, bölgələri də əhatə edib. Rəsmi rəqəmlərə istinadən deyə bilərəm ki, Azərbaycanda məktəb tikintisi son illərdə sürətlə aparılır. Azərbaycanın ən ucqar kəndlərində belə şagirdlər yeni məktəblərdə təhsil alırlar. Bu onun göstəricisidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət təhsilin inkişafına, onun madditexniki bazasının möhkəmlənməsinə böyük qayğı göstərir".

**K.Əsədov qeyd edib ki, hazırda ölkəmizdə 4472 orta məktəb binası var və son 10 il ərzində onların 3 mindən çoxu təmir olunub. Amma buna baxmayaraq hazırda normal təhsil mühitinin və şəraitinin olmadığı, qəzalı vəziyyətdə olan məktəblər var:** "Misal üçün, 2017-2020-ci ildə ölkəmizdə 700-dən çox yeni məktəb tikilmiş, 44 məktəbdə əsaslı, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb. Amma bu məktəblərin hamısı regionlarda yerləşir və az saylı şagird tutumuna malikdir. Ona görə də böyük vəsait sərf edib yeni, böyük məktəb binası inşa etməkdənsə, modul tipli məktəblər inşa etməklə bu problemi həll etmək olar. Modul tipli məktəblərdən Avropa və Amerikada istifadə edilir. Bu, daha çevikdir, sökülüb-daşınması daha optimaldır, təhlükəsizlik yüksək səviyyədədir, daha keyfiyyətli dizayn əsasında formalaşdırılır. Ənənəvi məktəblərdə, daha çox tikinti materiallarından istifadə olunur. Düşünürəm ki, 2022-ci ilin qədər ölkədə qəzalı vəziyyətdə olan məktəbləri modul tipli məktəblərlə əvəz etməklə təhsilin inkişafına təkan vermək olar.

Hazırda ölkədə yüzlərlə qəzalı vəziyyətdə, hər an ucub, dağılıb ciddi fəsadlar törədə biləcək məktəb binaları var. Ölkənin iqtisadi gücü bütün məktəb binalarını müasir standartlara cavab verəcək səviyyədə təmin etməyə imkan verir.

Aparılan islahatlar təhsilin bütün sahələrini əhatə etdiyi kimi, yeni məktəblərin tikintisinə, yeni avadanlıqla təchiz edilməsinə, qəzalı məktəblərin bərpasına və köhnələrin təmirinə də əsaslı şəkildə geniş imkanlar yaradıb. Prezident İlham Əliyev bu sahədə islahatların sürətlə həyata keçirilməsini təmin edib, ölkənin təhsil sistemi əsaslı şəkildə yenidən qurulmağa başlayıb. Dövlət başçısı çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmayacaq. Binə qəsəbəsində salınan yeni məktəb binası olduqca böyük hadisədir. Binə qəsəbəsində şagird sıxlığı müşahidə olunurdu. Artıq bu problem də aradan qalxmış olacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bürokratik əngəllər aradan qalxacaq

## Üçtərəfli gömrük-keçid məntəqəsinin yaradılması faydalıdır

**Gürcüstan və Azərbaycan arasında "İpək yolu" birgə gömrük-buraxılış məntəqəsinin yaradılmasını nəzərdə tutan saziş imzalanıb. Bu barədə Gürcüstanın Maliyyə naziri Laşa Xutsişvili deyib. Nazir əlavə edib ki, 2021-ci ildə Gürcüstan, Türkiyə və Azərbaycan arasında gömrük sahəsində yeni üçtərəfli əməkdaşlıq formatının əsası qoyulub.**

Xutsişvili gömrük sahəsində ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Gürcü nazir tərəfdaş ölkələri bu layihələrin tezliklə həyata keçirilməsi üçün dəstək verməyə çağırıb. Məlumat üçün bildirək ki, Türkiyə tərəfi Azərbaycan və Gürcüstan hökumətləri arasında gömrük məsələləri üzrə üçtərəfli komitənin yaradılması haqqında protokolu təsdiqləyib. Üç ölkə arasında gömrük məsələləri üzrə komitə ötən ilin oktyabrında Türkiyənin İzmir şəhərində yaradılıb. Üçtərəfli Komitə sərhəd keçidlərini asanlaşdırmaq, sadələşdirmək və onların təhlükəsizliyini təmin etmək üzrə əməkdaşlığı əlaqələndirəcək. Azərbaycan üçtərəfli əməkdaşlıq sazişi haqda protokolu ötən ilin dekabrında təsdiqləyib.



***Türkiyə, Azərbaycan və Gürcüstanın anlaşması iqtisadi inkişafa səbəb olacaq***

**Üçtərəfli Komitənin əhəmiyyətini "Şərq"ə dəyərləndirən iqtisadçı Natiq Cəfərli deyib ki, region ölkələri arasında gömrük-keçid məntəqələrinin sayının çox olması, sürətli keçidlərin təmin edilməsi iqtisadi münasibətlərin inkişafına təkan verən mühüm amillərdən biridir. Ekspertin sözlərinə görə, bu addım kiçik və orta sahibkarlar arasında əlaqələrin daha da genişlənməsinə səbəb olar:** "Gömrük-keçid məntəqələrində zaman itkisinin olmaması, bürokratik əngəllərin və neqativ halların tamamilə ortadan qalxması regional ölkələrin ticarət dövriyyəsinin artmasında mühüm rol oynayar. Gürcüstan, Azərbaycan və Türkiyənin üçlü tərəfdaşlığı böyük potensiala malikdir. Türkiyə ilə Azərbaycan arasında üç il ərzində ticarət dövriyyəsini üç dəfə artırmaq, yəni 15 milyard dollara çatdırmaqla bağlı anlaşma var. Gürcüstan burada əsas halqalardan biridir. Azərbaycan-Türkiyə lojistik əlaqələri daha çox Gürcüstan üzərindən həyata keçirilir. Bu baxımdan yeni gömrük-keçid məntəqələrinin yaradılması olduqca vacib və faydalıdır".

**İsmayıl Qocayev**

# Bütün proqnozlar səhv çıxdı

## Dünyanın neft bazarının cari ildə necə olacağı ilə bağlı təsəvvürləri kifayət qədər ehtiyatlıdır



**Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 2,68 ABŞ dolları, yaxud 2,94 faiz artaraq 93,84 ABŞ dollara çatıb. Bu barədə neft bazarındakı mənbə məlumat verib. Dünən "Brent" markalı neftin bir bareli 89,24 ABŞ dolları olub.**

Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 50 ABŞ dolları götürülüb. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 faizdir.

**Mövzunu "Şərq"ə şərh edən iqtisadçı İlham Şaban qeyd edib ki, hazırda əsas məsələ dünyada olan geopolitik gərginlik və ondan yaranan risklərdir:** "İlkin səbəb ilin əvvəlində "Omicron" ştammı ilə bağlı verilən proqnozların özünü doğrultmamasıdır. Yayılan məlumatlara əsasən, gözlənilirdi ki, yenidən qapanmalar baş verəcək və bunun nəticəsində enerjiyə tələbat çox olmayacaq. Hətta dekabrın əvvəlində "OPEK+" qeyd etdi ki, bazardakı yüksək qiymətlərə fikir vermək lazım deyil, təkliflər tələbi üstələyəcək. Amma belə hadisələr real həyatda baş vermədi. Şimal yarımkürəsində hava əsl qış rejiminə uyğundur. Enerjiyə tələbat kifayət qədərdir. Digər tərəfdən isə qiymət artımının səbəbi neftlə birbaşa bağlılığı olan ölkələrin arasında hərbi qarşıdurmaların baş verməsidir. Misal olaraq, Səudiyyə Ərəbistanı ilə Yəmən arasında olan münaqişə bazar iştirakçılarını ehtiyatlı davranmağa sövq etdi. Bu münaqişələrin hərbi fazaya keçmə ehtimalı qarşısında enerji daşıyıcılarının hasilatçılardan istehlakçılara çatdırılmasında problemlər yarana bilər. Buna görə də neftin qiymətinin 90 dollardan yuxarı həddini müşahidə edirik".

**İqtisadçı verilən proqnozlarla reallıq arasındakı fərqlərdən də danışıb:**

"Bu məsələ ilə bağlı yanlış verilən proqnozların sayı həddən artıq çoxdur. 2021-ci illə müqayisədə proqnozlar çox dəyişib. Ötən ili 75 dollarla başa vurduq, amma indi orta qiymət 76 dollarla 96 dollar diapazonunda formalaşıb. Bu onu göstərir ki, bu cür alt və üst qiymətləri dilə gətirən qurumların reallıqda bazarın cari ildə necə olacağı ilə bağlı təsəvvürləri kifayət qədər ehtiyatlıdır. Ona görə də əvvəllər qiymətlər 2-3 dollar xəta ilə deyilirdisə, indi bu qiymətlərdə təqribi 20-30 faiz xəta olacaq".

**Çimnaz ŞAHLAR**

# Artıq hazırlıq işləri aparılır

## İkinci "Ağıllı kənd" Füzuli rayonunda salınacaq, sakinlərin kənd təsərrüfatı ilə məşğul olması üçün də imkan yaradılacaq



**Azərbaycanda ikinci "Ağıllı kənd" Füzuli rayonu Dövlətyarlı kəndində salınacaq. Kəndin təməli ötən il oktyabrın 17-də Prezident cənab İlham Əliyev tərəfindən qoyulub.**

"Böyük Qayıdış" prosesi çərçivəsində Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd"də də məskunlaşma başlayacaq. Kənddə üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Həmçinin, məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq və bazar inşa ediləcək.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə deyib ki, Füzuli rayonu Dövlətyarlı kəndinin yerləşmə coğrafiyası və təbii üstünlükləri nəzərə alınmaqla bir neçə sektor üzrə müəssisələrin yaradılması nəzərdə tutulub. Deputatın sözlərinə görə, kənddə kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır:** "Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq. Eyni zamanda Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. İstehsal olunacaq balıq məhsullarının ixrac ediləcəyi gözlənilir. Kənddə quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq. Kəndin iqlimi və relyef üstünlükləri nəzərə alınaraq turizm infrastrukturunun formalaşdırılması və otel infrastrukturunun yaradılması nəzərdə tutulub".

**Parlament üzvü vurğulayıb ki, bütün bunlarla yanaşı, kəndin ətrafında isə "Ağıllı kənd" təsərrüfatı sahəsi olacaq:** "Beləliklə, sakinlərin kənd təsərrüfatı ilə məşğul olması üçün də imkan yaradılacaq. Enerji təminatı isə yaşıl və alternativ mənbələr hesabına ödəniləcək. Kənddə xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Burada 20 daimi iş yeri yaradılacaq. Kəndin salınmasına nə zaman başlanılacaq? Artıq hazırlıq işləri aparılır. Kəndin layihəsi təsdiq olunub. Qısa zamanda inşaat işləri intensivləşəcək".

**İsmayıl**

# "Məktəblərdə korrupsiya kök salıb"

## "Belə olduğu təqdirdə də istənilən müəllimdən, valideyndən pul yığılır"



**Sosial şəbəkələrdə məktəb direktorunun müəllimdən rüşvət istəməsinə dair səs yazısı yayılıb. Hadisə Ağstafa rayonu Aşağı Kəsəmən tam orta məktəbində baş verib. Səs yazısına əsasən, direktor Mətanət Məmmədova həmin məktəbin müəllimi Vüsalə Məmmədovadan əlavə dərs saatları müqabilində hər ay ona pul verməsini tələb edib. V.Məmmədova isə imkanı olmadığını deyərək, pulu verə bilməyəcəyini bildirib.**

Bundan sonra direktor müəllimi otaqdan qovub və bu barədə hardasa danışacağı təqdirdə onu cəzalandıracağı ilə hədələyib. Şikayətçi müəllim V.Məmmədova açıqlamasında yayılan səs yazısının ona məxsus olduğunu təsdiqləyib. O bidlirib ki, direktor Mətanət Məmmədova özü də daxil olmaqla əksər müəllimdən əlavə dərs saatlarına görə 100 manat pul tələb edib. O məsələ ilə bağlı rayon təhsil şöbəsinə və Təhsil Nazirliyinə şikayət etdiklərini bildirib.

**Təhsil eksperti Elçin Əfəndi məktəblərin rüşvət bəlasından "Şərq"ə danışarkən bildirib ki, bu hal sadəcə Ağstafada deyil, respublikanın bütün bölgələrində baş verir:**

"Başlıca səbəb də direktorların qohumluq, tanışlıq ilə işə götürülməsidir. Belə halların qarşısını almaq üçün biz onların işə qəbul prosesində şəffaflıq yaratmalıyıq. Doğrudur, Təhsil Nazirliyi direktorların işə qəbulunda müvafiq imtahanlar keçirir. Amma yenə də kimlərsə tapşırıqla bu vəzifəyə gəlir".

Ekspert vurğulayıb ki, uzun müddət azı 15-20 il eyni direktor tərəfindən idarə olunan məktəblər var:

"Təhsil Nazirliyi belə məqamları diqqətə almalıdır. Bir məktəb direktorunun yeri heç olmasa üç ildən bir dəyişilməlidir. Çünki o, bu müddətdən artıq eyni məktəbdə qaldıqda orda şəbəkə formalaşdırır. Ağac kimi kök salır. Belə olduğu təqdirdə də istənilən müəllimdən, valideyndən pul yığılır".

*E.Əfəndinin fikrincə, Təhsil Nazirliyi prosesin şəffaflığı üçün müvafiq komissiyalar yaratmalıdır:*

"Daimi olaraq məktəblərdə yoxlama aparılmalıdır. Bu istiqamətdə müəllimlərin dinlənilməsi, onların şikayətlərinin qeydə alınması vacibdir. Əks halda elə indiki kimi də davam edəcəyik".

**Günəş Mərd**



# "Kaş ki, Allah məni dünyaya kişi gətirərdi"

## Rəqqasənin paylaşımı sosial şəbəkədə müzakirə olundu

**Rəqqasə Fatima Fətəliyeva sosial şəbəkə paylaşımı ilə diqqət çəkib.**

O, instaqram hesabında təyyardə çəkilən fotosunu yayımlayıb. Fatimə görüntüsünə müzakirələrə səbəb olan sözlər də yazıb:

"Hər şeyi düşünməkdən, insanlardan yoruldum. Hər zaman əhatəmizdə dürüst insanlar olsaydı... Kaş ki, Allah məni dünyaya kişi gətirərdi".

Rəqqasənin bu paylaşımı sosial şəbəkə istifadəçilərinin müzakirə obyektinə çevrilib.

Onlar "Sizi çox yaxşı anlayıram. İndi dürüst insan qalmayıb", "Öz həyatını tək başına yaşayan xanımlar hamısı yorğundur", "Mən də sizin kimi çox yorğunam" kimi şərhlər yazaraq Fatimənin fikirlərinə şərik olublar.

# "Zəfər Yolu" kitabı nəşr olunub



**"Zəfər Yolu" kitabı Azərbaycan və ingilis dillərində nəşr olunub.**

Bu barədə "Şərq"ə kitabın həmmüəllifi Vüqar Şahinoğlu məlumat verib. Kitabın giriş hissəsində Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun parlaq qələbəsindən və xalqımızın 44 günlük savaş ərzində neçə birlik nümayiş etdirməsindən danışılır, "Zəfər yolu" adlı bu kitap zəfərdən bəhs edir. 30 il torpaq həsrəti ilə yaşayan bütün azərbaycanlılar bu zəfəri, bu sevinci gözləyirdi. Bizim savaş haqq savaşı idi. Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevin apardığı uğurlu siyasət, Azərbaycanın müzəffər ordusunun şücaəti, cəsarəti sayəsində torpaqlarımız işğaldan azad olundu, 44 günlük mücadiləmiz qələbə ilə nəticələndi. Qalibiyyətimizin sevinci bu kitabda tərənnüm olunub.

Qeyd edək ki, kitabın müəllifləri Azərbaycan Yazıçılar Birliyinin üzvü, prezident təqaüdçüsü, tanınmış yazar İradə Əlili və müstəqil jurnalist Vüqar Şahinoğludur. Burada 15-ə qədər Qarabağdan olan məcburi köçkün olmuş tanınmış media və ictimaiyyət nümayəndələrinin, o cümlədən digər peşə sahiblərinin işğaldan azad edilmiş torpaqlar haqqında fikirləri öyrənilib, müsahibələr hazırlanıb. Kitabın ön sözünün müəllifi Cəbrayıldan seçilən millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovdur. Kitabın redaktoru Əməkdar jurnalist Elnarə Dərziyeva, məsləhətçiləri Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Ombudsman Aparatının əməkdaşı Azadə Novruzova, Niderland-Belçika koordinasiya şurasının əlaqələndirici üzvü İlkanə Yusifova, tərcüməçi Xəyalə Qurbanova, korrektorlar Səadət Tanrıverdiyeva, Ləman Bağırlı, dizayneri Leyla Babazadədir. Kitabın, istisna hal baş verməzsə, təqdimat mərasiminin 2022-ci ilin ilk ayında Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında keçirilməsi planlaşdırılır. Həmçinin "Zəfər Yolu" kitabının yaxın zamanlarda Türkiyə türkcəsində dərc edilməsi gerçəkləşəcək. Nəşri Türkiyə türkcəsinə çevirən isə Bakı Dövlət Universitetinin müəlliməsi, filologiya üzrə fəlsəfə doktoru Kəmalə Ələkbərovadır.

Kitab satış üçün nəzərdə tutulmayıb, aidiyyəti üzrə dövlət qurumlarına, Azərbaycanın xarici ölkədəki səfirliklərinə, diaspor təşkilatlarına təqdim ediləcək.

*Qeyd edək ki, kitabın Ukraynada çap olunması da nəzərdə tutulub.*

# Dövran dəyişir

## Dövlət orqanlarında çalışan hüquqşünaslar vəkil olmağa can atır



**Ölkədə gənclər müstəntiq yox, vəkil olmaq istəyir, hüquqşünas çatışmır. Bu barədə Vəkillər Kollegiyasının sədri Anar Bağırov bildirib. Onun sözlərinə görə, bu gün Azərbaycanda hüquqşünasların sayı olduqca azdır:**

"İstər dövlət orqanlarında, istər özəl sektorda hüquqşünaslara böyük ehtiyac var. Əvvəllər hüquq-mühafizə orqanlarında çalışmaq istəyən gənc hüquqşünaslar indi daha çox vəkil olmağa can atır. Eyni zamanda bəzi dövlət qurumlarında çalışan hüquqşünaslar vəkil kimi fəaliyyət göstərməyə üstünlük verir".

Hüquqşünas Adəm Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, dünya təcrübəsinə əsasən də söyləmək olar ki, ədliyyə orqanlarında, məhkəmələrdə çalışan şəxslərdə vəkillik fəaliyyəti daha uğurlu alınır:

"Hüquqşünasın peşəkar olması üçün onun harada çalışması çox mühüm əhəmiyyət kəsb edir. Vəkilin silahı ağlı, savadı, qələmidir. Təcrübəsi olmayan bir insan mantiyanı əyninə geyinib, vəsiqəsini cibinə qoymaqla vəkil olmur. Bunu belə izah etmək olar: Sanki hər hansı bir rayonun ucqar bir kəndində yaşayan da, Amerikanın mərkəzində fəaliyyət göstərən şəxs də deyir ki, ticarətçiyəm. Vəkil vəzifə fəaliyyəti deyil ki, pillə-pillə qalxsın. O, öz üzərində çalışıb, yaradıcı işlərlə məşğul olmalıdır. Çox insan isə bu istiqamətdə tənbəllik edir. Vəkillərin sayının çox olmağındansa, peşəkarların çox olmasını arzu edirəm. Amerika Birləşmiş Ştatlarında ictimai vəkillik deyilən bir anlayış var. Şəxs uzun müddət işləyir, könüllü xidmət göstərir, məhkəmələrə çıxır. Özünü doğrultduqdan sonra vəkil statusunu qazanır. Gələcəkdə zəruri olmayacaq ixtisaslar varsa, onlardan biri də hüquqşünaslıqdur. Çünki elm və texnikanın inkişaf etdiyi bir zamandayıq. Əvvəl hər hansı cinayəti müəyyən etmək üçün müxtəlif əməliyyatlar aparılırdı. Amma artıq bir telefon danışığı ilə cinayətin üstü açılır".

**Sücayət Mehti**

# Polis əməliyyat keçirib

## Bu dəfə pulemyot satmaq istəyənlər saxlanılıb



İlqar Cəfərzadə Xeyrulla Nəsrullayev İlqar Əliyev Sərxan Heydərov



**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qanunsuz olaraq odlu silah-sursat, eləcə də narkotik vasitələr satmaq istəyən şəxslərə qarşı əməliyyatlar həyata keçirilib.**

Bu barədə "Şərq"ə DİN-in Mətbuat Xidmətindən məlumat verilib.

Daxil olan əməliyyat məlumatı əsasında keçirilən ilk tədbir zamanı narkotik vasitələrin ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilməsini təşkil edən İlqar Əliyev və tanışı Xeyrulla Nəsrullayev Qaradağ rayonunda saxlanılıblar.

Onların üzərindən 5 büküm ümumi çəkisi 10 kiloqram 149 qram yüksək təsiredici narkotik maddə heroin aşkar olunub. Bu şəxslər narkotik vasitələri satmaq məqsədi ilə ölkə ərazisinə gətirdiklərini bildiriblər. Baş İdarə əməkdaşları tərəfindən keçirilən daha bir tədbir zamanı Füzuli rayon sakinləri İlqar Cəfərzadə və Sərxan Heydərov saxlanılıblar. Onlar birgə 1 ədəd "PKM" modelli "Kalaşnikov" konstruksiyalı pulemyot silahı satarkən Beyləqan rayonu ərazisində tutularaq Baş İdarəyə gətiriliblər.

*Qeyd olunan faktlarla əlaqədar saxlanılanların hər biri barəsində Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət is?ləri bas?lanılıb. Adları sadalanan şəxslər barəsində həbs qətimkan tədbirləri seçilib. Saxlanılanların cinayət əlaqələrinin aşkar edilməsi istiqamətində əməliyyat tədbirləri davam etdirilir.*

**Sənan**

# 3 övladın da qəyyumluğu anaya verildi

## Mətanət İsgəndərlinin oğlu və Canananın məhkəməsi bitdi



**Əməkdar artist Mətanət İsgəndərlinin oğlu Kərim və keçmiş gəlini Canana arasındakı apellyasiya məhkəməsi dünən baş tutub.**

Axşam.az-a açıqlama verən Canana 3 övladının qəyyumluğunu aldığını bildirib.

"Çox həyəcanlıyam, ədalətli qərar verildi. Övladlarımın üçünü də mənə verdilər. Vəkilimə də, hakimə də təşəkkür edirəm. Bilmirəm bundan sonra məni növbəti məhkəməyə verəcəklər, ya yox. Sona qədər gedəcəm. Uşaqlarım məndədir, çox sevinirəm. Uşaqlarımı heç kimə verməyəcəm. Qarşı tərəfin vəkili burada idi. Yəqin onlara xəbər verəcək. Sabah ad günümdür, Allah ən böyük hədiyyəni göndərdi" deyə, o, söyləyib.

Ev probleminə gəldikdə isə Canana bunu əlavə edib:

"Uşaqların ev haqları var, yəqin nənələri verəcək. İnsafa gələr, evi nəvələrinə verər. Onlar yaxşı şəraitdə yaşamağa öyrəşiblər".

*Qeyd edək ki, Kərim və Canana ötən ilin oktyabrında rəsmi boşanıb. Üç uşaq anadan alınaraq ataya verilmişdi.*

# Gənc model ölümdən dönüb

## Qadın bezinden infeksiya düşdü, ayaqları kəsildi



**29 yaşlı model Lauren Vasser qadınların menstrual tsikl dövründə istifadə etdiyi bezdən bədəninə keçən infeksiya nəticəsində ayaqlarını itirib.**

İnfeksiya toksiki şoka səbəb olub və gənc model ölümdən dönüb.

Medicina.az xəbər verir ki, xəstələnən qızın özü də, yaxınları da onun ağır qrip keçirdiyini güman edirdi. Həkimlər müalicələr yazsa da, o gündən-günə ağırlaşırdı.

Kaliforniyalı Lauren 2012-ci ildə günlərdir keçməyən qızdırma səbəbindən xəstəxanaya gedir, müayinə zamanı həkimlər onun bədənində ağır toksiki sindrom aşkarlayır.

İnfeksiya isə cinsi yolla bezdən keçmişdi. Belə ki, qadın bir bezi saatlarca saxladığı və unutduğu üçün onda olan hansısa maddə toksiki şok verir.

Qız xəstəxanada komaya düşür, uzun müalicədən sonra oyanan kimi dərhal artıq nekrozlaşan ayaqları amputasiya edilir. O vaxt onun 24 yaşı var idi.

Lauren bütün qadınlara başına gələnləri bölüşür ki, heç kim bu qorxulu şeyləri yaşamasın.

Daim istifadə etdiyi gigiyenik bezin onu şikəst etməsinə görə model istehsalçı şirkəti məkhəməyə də verib.

"Vagina qadın üçün çox infeksiyaların qapısıdır. İstifadə etdiyiniz bezlərin nələrə yol aça biləcəyini görün".

**Elan**

Nəsimi rayonu, 4 cü mikrorayon, Mir Cəlal küçəsi, ev 60, mənzil 19-da yerləşən Xudiyev İsmayıl Abbasəli oğluna məxsus evin sənədi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in
kompyuter mərkəzində
yığılır, səhifələnir və
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya
Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı:
2550 Sifariş: 236



## Rihannadan örnək addım

İqlim dəyişikliyi və irqçiliklə mübarizə üçün 15 milyon dollar ianə edib

**Barbadoslu 33 yaşlı müğənni Rihanna örnək addımı ilə gündəmə gəlib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sənətçi iqlim dəyişikliyi və irqçiliklə mübarizə üçün 15 milyon dollar ianə edib.

*Qeyd edək ki, Rihanna ötən il Barbados ölkəsinin Milli Qəhrəmanı adına layiq görülüb.*

## Bred Pitt yeni eşqə düşüb

İkili münasibətlərini gizli saxlayır



**Hollivud ulduzu Bred Pitt yeni eşqə yelkən açıb.**

Axşam.az  xəbər verir ki, 58 yaşlı aktyorun 35 yaşlı isveçli müğənni Lykke Li ilə münasibətdə olduğu iddia edilib. Cütlüyün yaşadığı evlərin bir-birinə yaxın seçilməsi şayiələri daha da gücləndirib.

"İnsayder"in məlumatına görə, ikili münasibətlərini gizli saxlayır. "The Sun" nəşri isə ulduzlar arasındakı münasibətin 2021-ci ilin ortalarından başladığını yazır.

Qeyd edək ki, Bred Pitt aktrisa Ancelina Coli, Lykke Li isə musiqiçi Jeff Basker ilə ciddi münasibət yaşayıb. Onların bu birlikdəliklərindən övladları var.

Bred Pitin bundan əvvəl amerikalı məşhur müğənni-aktrisa Andra Deylə münasibətdə olduğu bildirilirdi.







# Zinət əşyaları üstündə qanlı dava...

## Gəlinin atası bəy evini atəşə tutdu





Mələhət Rzayeva

**Hər ikisi də həkimdir. Ümid Keleş və Burcu Bulut Türkiyənin Trabzon şəhərindəki Qaradəniz Texnik Universitetinin Fərabi adına Xəstəxanasında çalışırlar. 4 ay öncə cütlük evlənmək qərarı verib və toy məclisi düzənləyiblər.**

"Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, toy günü gəlin və bəyə hədiyyə edilən zinət əşyaları üstündə ailələr arasında münaqişə yaranıb. Lakin gərginlik aradan qalxıb. 4 gün sonra isə ailələr yenidən bu mövzuya qayıdıb. Mübahisəni həll etmək üçün Kastamonudan Trabzona gələn gəlinin atası, ehtiyatda olan zabit Basri Bulut mübahisə zamanı əlini belinə ataraq tapançasını çıxarıb atəş edərək bəyi, bəyin atası və anasını, bacısını da yaralayıb. Yaralılar xəstəxanaya, Basri Bulut isə polis şöbəsinə aparılıb. Polis şöbəsində ifadə verən ata ifadəsində "dedilər ki, zinət əşyaları oğlan evinə çatmalıdır. Mən də yox, qızımda qalmalıdır, dedim. Onlar üstümə cumdular. Mən də əsəbiləşdim və atəş açdım", deyib. Bəyin ailəsi isə gəlinin atasından da, gəlindən də şikayətçidir. Oğlan evi iddia edir ki, atası tapançadan atəş etdiyi zaman təzə gəlin "vur, hamısını vur" deyə atasını təhrik edirmiş. İstintaq hazırda səs yazısını araşdırır, Burcu Bulut təhriketmə əməlinə görə məsuliyyətə cəlb edilə bilər. Həm ata, həm də qızı üçün 8 il azadlıqdan məhrumetmə cəzası istənilir. 4 ay öncə evlənmiş həkim cütlük isə artıq boşanma iddiasıyla məhkəməyə müraciət edib. Zinət əşyaları üstündə gənc ailə cəmi 4 ay sonra dağılır.

## Pişik qızınmaq üçün itə sığındı



**Bir neçə gündür ki, çovğunun əsarətində olan Türkiyədən maraqlı bir görüntü paylaşılıb. Kadrlarda pişiyin çovğundan qorunmaq üçün itə sığındığı əks olunub. Oxu.az  xəbər verir ki, kadrlar Tunceli şəhərindəndir.**

**Tarix boyu düşmən heyvanlar kimi tanınan pişiklə itin bu vəziyyəti görənləri təəccübləndirib.**

## Tibb zəlisi "Qırmızı Kitab"a daxil ediləcək



**Tibb zəlisi "Qırmızı Kitab"ın III nəşrinə daxil ediləcək.**

**APA xəbər verir ki, bu barədə AMEA Zoologiya İnstitutunun icraçı direktoru, biologiya elmləri doktoru Elşad Əhmədov deyib. O bildirib ki, hazırda tibb zəlisinin (H.orientalis) "Qırmızı Kitab"a daxil edilməsi istiqamətində işlər yekunlaşmaq üzrədir.**

## İlon Maskın yanacaqsız qalan raketinin bir hissəsi Aya düşəcək



**Yeddi il öncə kosmosa göndərilmiş "SpaceX" raketinin bir hissəsi beş həftə ərzində Ayın qaranlıq hissəsinə düşəcək.**

**APA-nın "USA Today"a istinadən verdiyi xəbərə görə, 2015-ci il fevralın 11-də Florida ştatındakı Keyp Kanaveral aerodromundan buraxılan "Falcon 9" raketi 340 milyon ABŞ dollar dəyərindəki "Dərin Kosmos İqlim Rəsədxanası" peykini (DSCOVR) kosmosa daşıyıb.**

**4 ay sonra DSCOVR peyki yerdən 620 min mil (997 793 km) məsafədəki son məntəqəsinə çatıb. Peyk gündəlik olaraq Yerə şəkillər göndərməyə davam edir və günəş qasırğalarını izləyir. Lakin yerə qayıtmaq üçün və ya Yer-Ay sistemindən qaçmaq üçün raketin ikinci mərhələsinin kifayət qədər yanacağı qalmamasından 2015-ci ilin fevralından bəri xaotik orbitlə hərəkət edir.**

**Hesablamalara görə, raketin hissəsi martın 4-də Ayın qaranlıq səthinə düşəcək və hadisənin Yerə təsiri olmayacaq.**



# İnsanların başını şoularla qatırlar

## Elgizin verilişi məktəbdəki biabırçılığı yaddan çıxarmaq üçün ortaya atıldı

**"Elgizlə izlə" verilişində televiziyamız adına utancverici olay baş verib. Studiyada kişi dizini yerə qoyaraq həyat yoldaşına yalvarır və onsuz yaşaya bilməyəcəyini bildirir.**

Belə reytinq xatirinə düzənlənən şoular cəmiyyətdə xoş qarşılanmayıb. Sosial şəbəkələrdə insanlar verilişi tənqid etməyə başlayıblar. İnsanlar Azərbaycan televiziyasında belə görüntüləri görmək istəmədiklərini söyləyiblər.

**Televiziyamızdakı nöqsanlarla bağlı "Şərq"ə danışan jurnalist, Qadın və Uşaq Akademiyası İctimai Birliyinin sədri Sevinc Fədai bildirib ki, oradakı olaylar real həyat hekayələrini ifadə etməyə də bilər:**

"Əsas məqsəd cəmiyyətin başını qatmaqdır. Lazımi vaxtda müəyyən bir görüntünü ortaya atırlar ki, cəmiyyətin fikrini dağıtsınlar. Bizim əhalinin düşüncəsini çox yaxşı bilirlər. Məsələyə hər kəsin fikir bildirəcəyini, nəticədə də gündəmi zəbt edəcəyini çox yaxşı anlayırlar".

**Ekspertin fikrincə, belə verilişlər gələcəyimiz üçün heç nə vəd etmir:**

"Elə bu yaxınlarda məktəbdə müəyyən olaylar baş verib. Şagirdlər müəllimə qarşı hörmətsizlik ediblər. Bu da göstərir ki, müəllim-şagird münasibətlərində, təhsil sistemində problemlər var.

Ciddi bir məsələnin müzakirə olunduğu vaxtda diqqət mənasız bir videonun üzərinə çəkilir. Uşaqlar televiziyalarda, sosial şəbəkələrdə belə görüntüləri izlədikdən sonra özləri də mənasız işlərlə məşğul olurlar.

Televiziyalar öz maarifləndirici funksiyasını yerinə yetirə bilmir. Aqressivləşmiş insanların başını bu cür görüntülərlə qatırlar".

**Xanlar ƏLİBƏY**

## Varislər kral ailəsinə məxsus zinət əşyalarını tələb edir



**İtaliyanın dördüncü və sonuncu kralı II. Umbertonun nəvələri 76 ildir İtaliyanın mərkəzi bankında saxlanılan kral daş-qaşlarını geri almaq istəyirlər.**

Axşam.az əbər verir ki, sözügedən zinət əşyaları ölkədə monarxiya ləğv edildikdən üç gün sonra saxlanılmaq üçün İtaliya Bankına göndərilib. Bir neçə gün sonra Kral II. Umberto kişi varisləri ilə birlikdə sürgün edilib.

Tac, sırğa, boyunbağı və müxtəlif zinət əşyalarından ibarət kolleksiyada 6 mindən çox brilyant və 2 mindən çox mirvari var.

Müraciətin ardından İtaliya Bankı ailənin qeyri-rəsmi tələbini rədd edib. Bank rəsmiləri ilə ailənin vəkilləri arasında vasitəçilik görüşü keçirilib. Ancaq bu görüşdə tərəflər razılığa gələ bilməyiblər.

## İflic əlamətləri gülüşdə özünü necə büruzə verir?




**İflic əlamətləri gülüşdə özünü büruzə verə bilir. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, ilk fotodakı kişi beynindəki şişə görə şüa terapiyası alıb.**

Lakin müalicədən sonra beynin sol hissəsində emosiyaların işləndiyi talamus adlanan mərkəz zədələnib. Xəstənin normal vəziyyətdə üzündə iflic əlamətləri yoxdur. Ondan şüurlu şəkildə gülümsəməsi istənildikdə bunu asanlıqla edir və üzündə iflic əlaməti olmur. Ancaq belə xəstəyə gülməli bir söz söylədikdə və o gülümsədikdə üzünün sağ tərəfində iflic əmələ gəlir. İkinci fotodakı qadında isə hərəkət mərkəzində beyin zədəsi baş verib. Buna görə də gülümsəmək istədikdə üzünün sağ tərəfində zəiflik olduğu görünür. Ancaq xəstəyə gülməli bir şey deyildikdən sonra o güləndə iflic əlaməti yox olur. İnsanın gülmə hərəkəti emosional sistem (limbik sistem) tərəfindən idarə olunur. Beləliklə, könüllü gülüş və emosional gülüş (gülməli bir şeyə gülmək) müxtəlif sahələr tərəfindən idarə olunur.

**Günəş Mərd**

## Foto dünyanı dolaşıb

Bu uşaq üçün İtaliyada 129 min dollar toplandı



**Anadan əl-ayaqsız doğulmuş suriyalı uşaq xeyriyyə kampaniyasından sonra İtaliyada dörd əvəzedici protezlə təmin olunacaq.**

Hazırda 6 yaşlı Mustafa Əl-Nəzər 114.000 avro (129.000 dollar) ianə ilə Bolonya yaxınlığındakı "INAIL" Protez Mərkəzində dünya şöhrətli həkimlər tərəfindən müalicə olunur.

Moderator.az bu haqda xarici İslam saytlarına istinadla xəbər verir.

"Bu, çətin iş olacaq, lakin bizim məqsədimiz Mustafaya müstəqil həyat sürməsi imkanı yaratmaqdır"- deyə qəza nəticəsində ayaqlarını itirmiş "Formula-1" pilotu Aleks Zanardini də müalicə etmiş mərkəzin texniki direktoru Qreqorio Teti söyləyib.

Əl-Nəzərin bomba partlaması nəticəsində ayağını itirmiş atası ilə havada çəkilmiş fotosu dünyanı dolaşıb. Məşhur foto çəkdikləri əzablara baxmayaraq suriyalı müsəlman ata-ananın nur saçan təbəssümlərini əks etdirir...  Həmin fotonun müəllifi olan fotoqraf  "Siena International Photo Awards" Beynəlxalq Foto Mükafatına layiq görülüb. Foto dünyanın hər yerindən inanılmaz reaksiyalara səbəb olub. Bu da mükafatın təşkilatçılarını 6 yaşlı Əl-Nəzər üçün  xeyriyyə aksiyası təşkil etməyə sövq edib...